QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 113 (5344) 30 **iyun** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# İlham Əliyev: “Polşa-Azərbaycan əlaqələrinin növbəti dövrü başlayır”



Səh 2

13

**Fondun Müşahidə Şurasının yeni tərkibdə ilk iclası keçirilib**



14

**Hərənin öz arşını mənzil bölgüsünə tətbiq olunsunmu?**



16

**Ronaldu üçüncü yer uğrunda matçda oynamayacaq**



# İlham Əliyev: "Polşa-Azərbaycan əlaqələrinin növbəti dövrü başlayır"

***İyunun 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Varşavada rəsmi qarşılanma mərasimi olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev Polşa Prezidentinin sarayına gəldi.***



Azərbaycanın və Polşanın dövlət bayraqlarının dalğalandığı meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Polşa Prezidenti Andjey Duda Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı. Polşanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Prezident Andjey Dudaya təqdim olundu. Azərbaycanın və Polşanın dövlət himnləri səsləndi. Prezidentlər birgə foto çəkdirdilər. Azərbaycan Prezidenti İlham Əliyev Polşada akkreditə olunan diplomatik korpusun təmsilçiləri və Varşava Şəhər Şurasının üzvləri ilə görüşdü. Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

İyunun 27-də rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın təkbətək görüşü keçirilib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Azərbaycan ilə Polşa arasında əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olundu. Azərbaycan Prezidenti İlham Əliyevin Polşaya rəsmi səfərinin münasibətlərimizin inkişafı baxımından önəmi xüsusi vurğulandı. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı. Görüşdə Prezident İlham Əliyev və Prezident Andjey Duda qarşılıqlı olaraq hədiyyələr təqdim etdilər.







İyunun 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Polşa Prezidenti ölkələrimiz arasında siyasi sahədə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi, qarşılıqlı ticarət dövriyyəsinin daha da artırılmasının vacibliyini qeyd etdi. İqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirən Prezident Andjey Duda bu sahədə imkanların araşdırılması baxımından Azərbaycan-Polşa biznes forumunun və imzalanan sənədlərin əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyevin Polşaya rəsmi səfərinin ölkələrimiz arasında münasibətlərin inkişafında yeni mərhələnin başlanmasına təkan verəcəyini qeyd edən Prezident Andjey Duda bildirdi ki, Polşa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi əsasında həll olunmasını dəstəkləyir.

*Ardı Səh. 3*

# İlham Əliyev: "Polşa-Azərbaycan əlaqələrinin növbəti dövrü başlayır"

Əvvəli Səh. 2



Prezident İlham Əliyev Azərbaycan-Polşa siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu bildirdi, bu səfərin ikitərəfli münasibətlərin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Dövlətimizin başçısı ölkələrimiz arasında iqtisadi sahədə əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı, bu baxımdan Azərbaycan-Polşa biznes forumunun əhəmiyyətini qeyd etdi. Söhbət zamanı, həmçinin nəqliyyat, dəmir yolu, energetika, infrastruktur, kənd təsərrüfatı, maşınqayırma, turizm, ərzaq, tikinti, əczaçılıq sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Andjey Dudanın iştirakı ilə sənədlərin imzalanması mərasimi olub. Prezident İlham Əliyev və Prezident Andjey Duda "Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında Strateji Tərəfdaşlıq və İqtisadi Əməkdaşlığa dair Yol Xəritəsi haqqında Birgə Bəyannamə"ni imzaladılar.

"2005-ci il martın 30-da Varşava şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişdə dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında Protokol"u Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Polşanın müdafiə nazirinin müavini Tomaş Ştatlovski imzaladılar.

"Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Polşa Respublikasının Energetika Nazirliyi arasında energetika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Polşanın energetika nazirinin müavini Mixal Kurtika imzaladılar.

"Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Polşa Respublikasının İnfrastruktur və Tikinti Nazirliyi və Dəniz İqtisadiyyatı və Daxili Naviqasiya Nazirliyi arasında nəqliyyat və nəqliyyat infrastrukturu sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə ilə Polşanın infrastruktur və tikinti naziri Andjey Adamçek və dəniz iqtisadiyyatı və daxili naviqasiya naziri Marek Qrubarçek imzaladılar.

"Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin Bakı Ali Neft Məktəbi ilə AGH Elm və Texnologiya Universiteti arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti Elşad Nəsirov və Polşanın Elm və Texnologiya Universitetinin prorektoru Yeje Lis imzaladılar. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə "Polşa Dövlət Dəmir Yolları" Səhmdar Cəmiyyəti arasında dəmir yolları sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov və "Polşa Dövlət Dəmir Yolları" Səhmdar Cəmiyyətinin baş icraçı direktoru Kşiştof Maminski imzaladılar.

Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Polşa Respublikasının Prezidenti Andjey Duda və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər.

Polşa Prezidenti Andjey Dudanın bəyanatı

-Zati-aliləri cənab Prezident. Hörmətli qonaqlar.

Prezident İlham Əliyevi Polşada məmnuniyyətlə salamlayıram. Bu, sırf onunla bağlı deyil ki, o, dövlət başçısıdır. O, həmçinin elə bir insandır ki, Polşa Respublikası ilə iqtisadi əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirir. Əslində, sonuncu dəfə rəsmi səfər 2008-ci ildə - 9 il əvvəl olmuşdur. Həmin vaxt cənab Prezident ölkə başçısı, professor Lex Kaçinski ilə görüşlər keçirdi. Yaxşı xatirimdədir ki, biz cənab Prezidenti və onun xanımını prezident sarayı qarşısında səmimiyyətlə qarşıladıq. Çox şadam ki, cənab Prezident, Siz yenidən Varşavadasınız.

Sizin səfəriniz çərçivəsində bu gün biz ölkələrimiz arasında bir çox sənədləri imzaladıq. Hesab edirəm ki, bu sənədlərin məqsədi əməkdaşlığın, xüsusən də iqtisadi, elmi, siyasi əməkdaşlığın genişləndirilməsi deməkdir. Çünki imzaladığımız sənədlər ölkələrimiz arasında siyasi əməkdaşlığımızı, strateji tərəfdaşlığımızı inkişaf etdirəcək və bu da çox vacibdir. Cənab Prezident, mən çox şadam ki, ölkələrimizin iqtisadi potensialı, sözün əsl mənasında, çox böyükdür və ticari mübadilələrimiz hələ yata keçirilir. İl ərzində onun həcmi 100 milyon dollar civarındadır.

İqtisadi imkanlara gəldikdə, onların geniş olmasına baxmayaraq, əməkdaşlığımız hələ ki, istənilən səviyyədə deyil. Bu gün sənədlər imzalandı. Cənab Prezident, çox böyük səmimiyyətlə onu gözləyirəm ki, bu gün biz Sizinlə birgə biznes forumu açıq elan edəcəyik və ölkələrimizin işgüzar dairələri həmin tədbir çərçivəsində görüşəcəklər. Bu, əslində ölkə prezidentlərinin məhz iqtisadi əməkdaşlığa, məhz şirkətlər arasındakı əməkdaşlığa böyük dəstəyinin göstəricisidir.

Cənab Prezident, çox sağ olun ki, məni Azərbaycana, Bakıya dəvət etdiniz. Elə indicə - bizim geniş tərkibdə görüşümüz zamanı Sizin qeyd etdiyiniz kimi, baxmayaraq, böyük bir vaxt keçibdir, lakin bu rəsmi səfəriniz üçün bizim hazırlıq işlərimiz əslində yaxşı nəticə verdi, ölkələrimiz arasında sənədlər imzalandı.

Cənab Prezident, Sizə səmimi qəlbdən təşəkkürümüzü bildiririk ki, Siz Polşanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsinə dəstək verdiniz. Mən buna görə Sizə çox minnətdaram. Siz gördünüz ki, bir çox səslər bizim ölkəmizin namizədliyinin lehinə verildi. Bizim seçilməyimiz bütövlükdə BMT-nin 190 üzvü arasında böyük dəstəyə malik olduğumuzu göstərdi. Çox şadıq ki, 2018-2019-cu illərdə Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olacağıq. Bu, həmçinin bizim beynəlxalq arenada mövqeyimizin gücləndirilməsi deməkdir. Buna görə Sizə çox minnətdaram, cənab Prezident. Bu gün mən, həmçinin Vuc şəhərinə Sizin dəstəyinizi xahiş etdim. Çünki biz orada 2022-ci ildə sərgi təşkil etmək fikrindəyik. Ümidvaram ki, Azərbaycan Prezidentinin verdiyi dəstək sayəsində Polşanın belə bir gözəl şəhərinin namizədliyi keçəcək və bir neçə ildən sonra biz qonaqları orada salamlayacağıq.

Xanımlar və cənablar, bizim cənab Prezidentlə çox yaxşı fikir mübadiləmiz oldu. Biz bir çox məsələlərə toxunduq. Biz əvvəlcə təmaslarımızın inkişafı haqqında danışdıq. Biz, həmçinin beynəlxalq proseslərə diqqət yetirdik və öz mülahizələrimizi bildirdik ki, vəziyyət nədən ibarətdir və necə dəyərləndirilməlidir. Təbii ki, bu vəziyyətin dəyərləndirilməsində də mövqelərimiz üst-üstə düşür. Bir çox strateji məsələlərə gəldikdə, cənab Prezidentin tutduğu mövqe mənim fikirlərimlə üst-üstə düşür. Biz bundan çox məmnunuq. Cənab Prezident, Sizə təşəkkür edirəm ki, fikir mübadiləmiz baş tutdu, Ukrayna haqqında danışdıq, Donald Trampın Avropaya və xüsusən də Polşaya səfəri nəzərdən keçirildi.

Cənab Prezident, həmçinin Sizə təşəkkürümü bildirirəm ki, Siz Avropa ilə Asiya arasında iqtisadi baxımdan əlaqələrin gücləndirilməsi barədə fikirlərinizi bildirdiniz. Qeyd etdiniz ki, nəqliyyat sahəsində bizim əlaqələrimiz genişlənməlidir. Çox istərdik ki, Azərbaycan ilə Polşa arasında birbaşa dəmir yolu xətti Gürcüstan və Ukrayna ərazilərindən keçərək yaradılsın. Bu, olduqca əhəmiyyətlidir. Çünki bunun sayəsində bizim nəqliyyat dəhlizimiz, əslində, Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsi tam həyata keçirilir. Biz də bu layihənin bir hissəsiyik və bizim, həmçinin Hindistana və İrana çıxışımız təmin olunur. Hesab edirik ki, biz bu perspektiv sayəsində, həmçinin ticari münasibətlərimizi və təmaslarımızı genişləndirəcəyik. Bizim qarşımızda həm Polşa, həm Azərbaycan üçün böyük imkanlar açılacaq. Bu səbəbdən iqtisadi münasibətlərimiz ikitərəfli münasibətlərimizin vacib bir hissəsidir. Mən çox şadam ki, bizim Asiya regionu ilə iqtisadi əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı mövqeyimiz üst-üstə düşür. Cənab Prezidentlə biz istərdik ki, bu layihələri həyata keçirək.

Enerji əməkdaşlığımıza da toxunduq. Ümidvaram ki, biz energetika sahəsində də çox sıx əməkdaşlıq quracağıq. Bu ideyalar hələ professor Lex Kaçinski Polşanın Prezidenti olduğu vaxtda irəli sürülmüşdür.

Ardı Səh. 4

# İlham Əliyev: "Polşa-Azərbaycan əlaqələrinin növbəti dövrü başlayır"



Əvvəli Səh. 3

Cənab Prezident, ümidvaram ki, biz bu münasibətləri daha da intensivləşdirməyə müvəffəq olacağıq. Qeyd etmək istəyirik ki, bu layihələr Lex Kaçinskinin vaxtında irəli sürülmüşdür. Çox şadam ki, cənab Prezident, Siz ölkəmizə, Varşavaya səfərə gəlmisiniz. Mənim dəvətimi qəbul etdiyinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm.

Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

-Çox sağ olun, hörmətli cənab Prezident. İlk növbədə, məni Polşaya dəvət etdiyinizə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Yenidən dost Polşa torpağında olmağımdan çox məmnunam.

Bu saraya daxil olarkən mənim dostum, Azərbaycanın dostu Prezident Kaçinskini xatırladım. Onun faciəvi ölümü dostlarını da sarsıtmışdır. Onun xatirəsi dostlarının qəlbində bu gün də yaşayır. Siz də onun silahdaşı kimi, bu gün dost Polşaya rəhbərlik edirsiniz.

Biz bu gün yenidən Polşa-Azərbaycan əlaqələrinin inkişafına təkan veririk. Prezident Kaçinskinin dövründə mənim Polşaya, onun Azərbaycana çoxsaylı səfərləri olmuşdur. Bu səfərlər zamanı biz dostluğumuzu möhkəmləndirirdik, birgə layihələr haqqında danışırdıq, bəzi layihələrə start verirdik. İndi isə Polşa-Azərbaycan əlaqələrinin növbəti dövrü başlayır. O, əslində Prezident Kaçinskinin dövrünün məntiqi davamıdır.

Bu gün biz bir çox məsələlər ətrafında səmimi fikir mübadiləsi apardıq. Bir daha gördük ki, Polşa və Azərbaycan iki dost ölkədir. Biz dostluğu bundan sonra da gücləndirəcəyik və əlaqələrimizin inkişafı üçün birgə səylər göstərəcəyik.

Prezident qeyd etdiyi kimi, bu gün bir çox önəmli sənədlər imzalanmışdır. Bu sənədlər əməkdaşlığımızın perspektivlərini müəyyən edir. Mən onların arasında əlbəttə ki, prezidentlər tərəfindən imzalanmış strateji tərəfdaşlığa və iqtisadi əməkdaşlığa dair Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu, çox ciddi siyasi sənəddir. Bu bəyannamə əlaqələrimizin demək olar ki, bütün istiqamətlərini, həmçinin siyasi, iqtisadi, enerji, nəqliyyat məsələlərini ehtiva edir. Bu bəyannamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında da deyilir və göstərilir ki, bu münaqişə ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Bu ədalətli mövqeyə görə, cənab Prezident, Sizə minnətdarlığımı bildirmək istəyirəm. Əlavə etmək istəyirəm ki, Azərbaycan dövləti və xalqı erməni işğalından iyirmi ildən çoxdur ki, əziyyət çəkir. Bu işğal nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır. Bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Bu münaqişə ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Bu tezislər Birgə Bəyannamədə öz əksini tapmışdır.

Biz bu gün beynəlxalq təşkilatlardakı birgə fəaliyyətimiz haqqında da danışmışıq. Fürsətdən istifadə edərək, bir daha Polşanı böyük qələbə münasibətilə təbrik etmək istəyirəm. Dünya birliyinin mütləq əksəriyyəti - 200-ə yaxın ölkə Polşanı BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçmişdir. Bu, ölkənizə və apardığınız siyasətə verilən böyük dəstəkdir. Bu dəstəyi Siz öz fəaliyyətinizlə, siyasətinizlə qazanmısınız.

Polşa sürətlə inkişaf edir. Polşa beynəlxalq arenada çox möhkəm mövqelərə malikdir. Polşa beynəlxalq arenada özünü prinsipial və ləyaqətli aparır. Hesab edirəm ki, bu amillər də belə böyük dəstəyə səbəb olmuşdur. Mən şadam ki, təxminən 200 ölkənin arasında Azərbaycanın səsi də olubdur. Bu gün biz razılaşdıq ki, beynəlxalq təşkilatlar çərçivəsində bundan sonra da bir-birimizi dəstəkləyəcəyik.

Qarşılıqlı əlaqələr təbii ki, iqtisadi sahəni əhatə edir. Biz razılaşdıq ki, indiki ticarət dövriyyəsi bizi qane edə bilməz. Ümid edirəm ki, bu gün keçiriləcək biznes forum və onun nəticələri ticarət əlaqələrimizin inkişafına xidmət göstərəcək. Artıq bu gün bir neçə konkret məsələlər ətrafında söhbət aparılmışdır.

Nəqliyyat və energetika. Hesab edirəm ki, bunlar iqtisadi bloka aid əsas istiqamətlər olmalıdır. Energetika sahəsində. Azərbaycan nefti Polşa bazarlarına çatdırılır. Bu gün Azərbaycan tərəfdaş ölkələrlə birlikdə nəhəng layihə olan "Cənub Qaz Dəhlizi" layihəsini uğurla icra edir. Bu layihə Azərbaycan qazını Avropa məkanına çıxaracaq. Layihənin ümumi dəyəri 40 milyard dollardır və icrası da uğurla davam etdirilir. Ümid edirəm ki, bu layihənin birinci mərhələsi gələn il, ikinci və sonuncu mərhələsi 2020-ci ildə başa çatacaq. Beləliklə, Azərbaycan Avropa üçün çox etibarlı tərəfdaş kimi özünü göstərəcək. Azərbaycanın enerji resursları Avropanın enerji təhlükəsizliyinə də öz dəyərli töhfəsini verəcək. Əlbəttə ki, energetika sektorunda digər istiqamətlər üzrə də yaxşı perspektivlər var. Əminəm ki, biz bundan istifadə edəcəyik.

Nəqliyyat sahəsinə gəldikdə Prezident Duda da qeyd etdi, həm Şərq-Qərb, həm Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Bizim ölkəmizdə artıq bütün müasir infrastruktur yaradılıb. Dəniz limanları, dəmir yolları, aeroportlar, avtomobil yolları və eyni zamanda, artıq regional əməkdaşlıq formatı da yaradılıb. İndi bizim vəzifəmiz ondan ibarətdir ki, bu əməkdaşlığı dərinləşdirək, Avropa ölkələrini də bu əməkdaşlığa cəlb edək. Bu yaxınlarda Bakıda dəmir yolları rəhbərlərinin keçirdikləri görüş deməyə əsas verir ki, artıq geniş beynəlxalq əməkdaşlıq formatı yaranır. Şadam ki, Polşa tərəfi də bu formatda iştirak edir. Bu, bizim qarşımızda çox böyük perspektivlər açır. Əminəm ki, bu istiqamətdə aparılacaq əlaqələndirmə işləri və birgə səylər tezliklə yaxşı nəticələrə gətirib çıxaracaq, bütün iştirakçı ölkələr bundan faydalanacaq.

Çıxışımın sonunda mən əlaqələrimizin humanitar aspektinə də toxunmaq istərdim. Biz polyakları və Polşanı yaxşı tanıyırıq. Müxtəlif dövrlərdə Azərbaycanda çalışmış və ölkəmizə xidmət etmiş məşhur polyak memarların, mühəndislərin, ictimai xadimlərin xatirəsi Azərbaycan xalqı tərəfindən yüksək hörmətlə anılır. Polyaklar 1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublikanın rəhbərliyində də təmsil olunmuşlar. Yəni, tariximizin bu səhifələri bugünkü dostluğun təməlidir. Humanitar sahədə, mədəniyyət, turizm sahələrində də çox yaxşı perspektivlər var. Bugünkü səfərim bizim dostluğumuzu bir daha təsdiqləyir. Prezident qeyd etdiyi kimi, mən cənab Dudanı Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Əminəm ki, o, dəvəti qəbul edəcək və biz uğurlu əməkdaşlığımızı davam etdirəcəyik. Bir daha təşəkkür edirəm.

# Varşavada Azərbaycan-Polşa biznes forumu keçirilib

***İyunun 27-də Varşavada Azərbaycan-Polşa biznes forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda biznes forumun açılış mərasimində iştirak ediblər. Polşanın iqtisadi inkişaf nazirinin müavini Tadeusz KOSCİNSKİ biznes forumda çıxış edərək dedi:***

-Mən hörmətli prezidentləri və bütün qonaqları salamlamaq istəyirəm. İqtisadi İnkişaf Nazirliyi adından bütün iştirakçıları bu gün keçirilən biznes forumda salamlayıram. Bu, birgə keçirilən tədbirdir. Bu tədbirdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak edir. Ümidvaram ki, bu gün məhz müzakirələr və fikir mübadilələri bizim iqtisadi inkişafımıza və Azərbaycan ilə Polşa arasındakı iqtisadi əməkdaşlığa zəmin yaradacaq.

Mən hesab edirəm ki, məhz Azərbaycan Polşanın Cənubi Qafqaz regionunda ən etibarlı və perspektivli tərəfdaşlarından biridir. Polşa Azərbaycan ilə münasibətlərin dərinləşdirilməsində maraqlıdır. Bu baxımdan son aylar ərzində hökumətlər səviyyəsində müxtəlif görüşlər keçirilmişdir. Biz ölkələrimiz arasında iqtisadi əməkdaşlığımızı qurmuşuq. Lakin onun bugünkü səviyyəsi mövcud iqtisadi potensiala uyğun deyil. Bunu nəzərə alaraq və xüsusən də bu əməkdaşlığın perspektivlərini görərək biz Azərbaycan Hökumətinin həyata keçirdiyi iqtisadi siyasəti öyrənirik. Bilirik ki, bu siyasət ölkənin bütövlükdə iqtisadiyyatının şaxələndirilməsinə və xüsusən də iqtisadiyyatın bütün digər sahələrinin inkişafına yönəldilib. Biz bilirik ki, Azərbaycan iqtisadiyyatın liberallaşdırılması istiqamətində bir çox addımlar atmışdır. Sərmayələrin qoyuluşu üçün Azərbaycanda münbit şərait yaradılmışdır. Bu baxımdan, həmçinin stimullaşdırıcı tədbirlər də görülüb ki, məhz investorlar cəlb edilsin, güzəştli kreditlərin verilməsi yolu ilə bu kimi iştirakçıların sayı çox olsun. Təbii ki, bu, iqtisadi münasibətlərimizə, ölkələrimiz arasındakı əlaqələrə müsbət təsir göstərir. Hesab edirik ki, bu gün məhz iqtisadi əməkdaşlığın, Polşa ilə Azərbaycan arasındakı əlaqələrin gücləndirilməsində bir çox imkanlar var. Məsələn, gəmi tikintisi, dəmir yolları, daşımalar, inşaat materialları istehsalı, maşınqayırma, energetika, sənaye, neft sənayesi, kənd təsərrüfatı, yeyinti məhsulları, kimya sənayesinin inkişafı baxımından bir çox imkanlar var.




Biz hesab edirik ki, iqtisadi inkişafımızda məhz yeni texnologiyaların araşdırılıb tətbiq edilməsində Polşa şirkətlərinin təcrübəsindən yararlanmalıyıq. Polşa tərəfi nəinki Azərbaycanın daxili bazarında öz iştirakının genişləndirilməsində maraqlıdır, o cümlədən Azərbaycan şirkətlərinin bizim ölkəmizin iqtisadiyyatının müxtəlif sahələrində iştirakına maraq göstərir. Xanımlar və cənablar, hesab edirik ki, keçirilən bu biznes forum məhsuldar əlaqələrin qurulmasında bir çox imkanlar yaradacaq və əməkdaşlığımız bununla daha da genişlənəcək. Sağ olun.

x x x

Sonra dövlət başçıları biznes forumda çıxış ediblər.

## Polşa Prezidenti Andjey Dudanın çıxışı

-Hörmətli cənab Prezident. Hörmətli nazirlər. Hörmətli şirkət rəhbərləri, dəyərli qonaqlar.

Bu gün keçirilən forumda iştirak etdiyinizə görə təşəkkürümü bildirirəm. Bu gün biz yeni bir layihəni həyata keçiririk. Yəni, Polşa ilə Azərbaycan arasında iqtisadi münasibətlərin məhz genişləndirilməsinə yönəlmiş bu tədbirdə iştirak edirik. Mən xüsusən də "AZPROMA"ya təşəkkürümü bildirmək istəyirəm. Çünki Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu bu tədbirin təşkil olunmasında yaxından iştirak edib.

Biz görürük ki, burada iqtisadiyyatımızın müxtəlif sahələri üzrə şirkətlər təmsil olunub. Hesab edirik ki, bu, bizim üçün yeni təmasların qurulmasına imkan yaradacaq və biznes münasibətlərimiz daha da intensivləşəcək.

Xanımlar və cənablar, Azərbaycan Polşanın Cənubi Qafqaz və Xəzər dənizi regionunda mühüm tərəfdaşıdır. Bu baxımdan biz Azərbaycan ilə iqtisadi əməkdaşlığımızın gücləndirilməsinə xüsusi önəm veririk. Bu gün Prezident İlham Əliyevin və mənim iştirakımla Prezident sarayında mühüm sənədlər imzalandı. Əminəm ki, bunun sayəsində ticarət münasibətlərimiz daha da intensiv olacaqdır. 2005-ci ildə Azərbaycan ilə Polşa arasında iqtisadi əməkdaşlıq haqqında Saziş imzalanmışdır. Bunun əsasında hökumətlərarası komissiya yaradılmışdır. Komissiya Bakıda və bizim paytaxtımızda dəfələrlə görüşlər keçiribdir. Bu baxımdan, həmçinin strateji tərəfdaşlıq haqqında bu gün imzalanmış Birgə Bəyannamə əməkdaşlığımızı daha da gücləndirəcək və biz bu Bəyannamə əsasında digər sahələrdə də iş birliyi qura biləcəyik.

Əvvəlcə bildirmək istəyirik ki, Azərbaycan ilə Polşa arasında əməkdaşlığın çox geniş perspektivləri var. Çünki bizim ölkələrimiz tarixi İpək Yolunun bərpasında xüsusi rol oynaya bilər. Azərbaycan mühüm daşımalar marşrutlarında, Asiya ilə Avropanın kəsişməsində yerləşir. Bu baxımdan hesab edirik ki, biz məhz Cənub və Qərb, o cümlədən Qərb-Şərq arasında saziş imzalamışıq. Həmçinin İranın da bu daşımalar marşrutuna qoşulmasını nəzərdə tuturuq. İstəyirik ki, digər tərəfdaşlar da bu işə qoşulsunlar və Şərq Tərəfdaşlığı çərçivəsində yeni bir layihə həyata keçirilsin. Biz dəmir yolunun məhz Cənub-Şərq hissəsinin şəbəkəmizə qoşulmasını təmin etmək istəyirik. Bu, bir növ Avropanın bütün Asiya ölkələrinə, regionuna çıxışını təmin edəcəkdir. Eyni zamanda, məhz bizim şəbəkələr Avropa İttifaqının bazarına böyük çıxışı təmin edir. Polşanın iqtisadi diplomatiyası məhz yeni ticari tərəfdaşların tapılmasına və yeni ticari münasibətlərin qurulmasına yönəlibdir. Bu baxımdan Azərbaycan sərmayədarları bizim üçün vacibdir. Azərbaycanın daxili bazarında da olmağımız bizim üçün əhəmiyyətlidir. Biz hesab edirik ki, bu baxımdan hər iki tərəf yalnız qazana bilər və bu, hər iki tərəfə qarşılıqlı surətdə hər hansı bir fayda gətirə bilər. Bu işdə avadanlıqlar, xidmətlər, neft və qaz emalı prosesləri, dəmir yolları xətlərinin təkmilləşdirilməsi, Polşa texnologiyalarının, mövcud mühəndis həll variantlarının tətbiq edilməsi də öz rolunu oynaya bilər. Polşada istehsal edilən avtobuslar, ictimai nəqliyyat vasitələri Stokholmda və digər Avropa paytaxtlarında artıq istifadə olunur. Bizim, həmçinin dəmir yolu sahəsində texnologiyalarımız var. Biz, həmçinin informasiya texnologiyaları, kənd təsərrüfatı, yeyinti məhsulları sahələrində də fəal iştirak edirik. O cümlədən logistika sahəsində də imkanlarımız kifayət qədər genişdir. Əczaçılıq və kosmetika sənayesi də geniş şəkildə inkişaf etmişdir.

Bizim ticari münasibətlərimizdə digər bir məqam ondan ibarətdir ki, hələ istifadə olunmayan potensialımız var. 2016-cı ildə təxminən 100 milyon ABŞ dolları həcmində ticarət dövriyyəmiz olmuşdur. Ümid edirəm ki, cənab Prezident İlham Əliyevin ölkəmizə səfəri sayəsində ticari mübadilələr daha da artacaqdır. Söhbət əsnasında və bu gün apardığımız danışıqlar zamanı biz iqtisadi münasibətlərimizə xüsusi toxunduq. Biz bu fikrə gəldik ki, iqtisadiyyatlarımızı bir-birimizə daha açıq etməliyik və beynəlxalq səviyyədə birgə mövqedən çıxış etməliyik. Zənnimcə, biz son on il ərzində digər xarici tərəfdaşlarımızla öz ticarət dövriyyəmizi necə artırmışıqsa, eyni zamanda, Sizin ölkənizlə də bu səviyyəni artırmalıyıq. Onu da qeyd edim ki, qlobal reytinq təşkilatları bu gün Polşanı məhz Avropada üç ən cəlbedici sərmayə mərkəzlərindən biri hesab edir. Buna görə də istərdim ki, Azərbaycan şirkətləri ölkəmizə gəlsin və sərmayələr yatırsınlar. Biz Avropa İttifaqının altıncı ən böyük iqtisadiyyatıyıq. Xanımlar və cənablar, ümidvaram ki, bu gün keçirilən görüş bir sıra təmasları qurmaq imkanı yaradacaq və siz birgə layihələr üzərində razılığa gələcəksiniz, öz şirkətləriniz, öz ölkələrinizin iqtisadiyyatı üçün bir çox fayda əldə edəcəksiniz. Çox sağ olun.

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Hörmətli cənab Prezident.

Xanımlar və cənablar, əziz dostlar. Əvvəla, mən cənab Prezidentə məni Polşaya səfərə dəvət etdiyinə, mənə və bizim nümayəndə heyətinə göstərdiyi qonaqpərvərliyə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bu gün biz əməkdaşlığımızın inkişafının yeni mərhələsinə qədəm qoyuruq. Mənim Polşaya səfərim çox uğurlu keçir. Biz bir çox sənədləri imzalamışıq. Onların arasında mən strateji tərəfdaşlıq və iqtisadi əməkdaşlıq üzrə Birgə Bəyannaməni xüsusi vurğulamaq istəyirəm.

Ardı Səh. 6

# Varşavada Azərbaycan-Polşa biznes forumu keçirilib

Əvvəli Səh. 5

Bu, siyasi və iqtisadi əlaqələrimizin inkişafında yeni bir yol xəritəsini əmələ gətirir. Bəyannamənin adı bizim iqtisadi əməkdaşlığa necə önəm verdiyimizi göstərir. Bugünkü biznes forum onun digər bir göstəricisidir. Çünki biznes icmaları çox həssasdırlar və çox aydın başa düşürlər ki, bu gün Polşa və Azərbaycan arasında yüksək səviyyəli siyasi əlaqələr onlar üçün yeni imkanlara yol açır. Məndə olan məlumata görə, bu gün biznes forumda şirkətlərimiz arasında bir neçə razılaşma imzalanacaqdır.

Əlbəttə ki, ticarət dövriyyəmizin cari səviyyəsi bizi qane edə bilməz və bu gün biz cənab Prezident və nümayəndə heyətləri ilə ticarət dövriyyəsinin necə artırılması yollarını müzakirə etdik. İqtisadi əlaqələrimizə təkan vermək üçün və həmçinin ixrac potensialımızın yaxşı mənzərəsinin formalaşmasına dair əlverişli fürsətlər var. Yəni, biz bir-birimizə nəyi ixrac edə bilər və hansı birgə biznes layihələrini icra edə bilərik. Polyak dost və tərəfdaşlarımızı çox sürətli iqtisadi inkişaf münasibətilə təbrik etmək istəyirəm. Bu gün Polşa ən yüksək iqtisadi artım sürəti, siyasi və iqtisadi sabitlik nümayiş etdirir. İnkişaf isə bu gün ölkənizin tərəqqiyə doğru yolunu gücləndirmək üçün çox yaxşı imkanlar yaradır.

Azərbaycana gəlincə, ölkəmiz nisbətən gəncdir, müstəqillik yalnız 25 il bundan öncə bərpa olunmuşdur. Biz keçən il bunu qeyd etdik. Bu illər transformasiya illəri - siyasi, sosial və əlbəttə ki, iqtisadi transformasiya illəri olmuşdur. Bu gün Azərbaycan, həmçinin çox yaxşı iqtisadi fəaliyyət nümayiş etdirir. 2004-cü ildən bəri iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Biz işsizliyi və yoxsulluğu 5-6 faiz səviyyəsinə qədər azalda bilmişik. Hazırda ümumi daxili məhsulun 70 faizdən çoxu özəl sektorun payına düşür və maliyyə ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə artıqdır. Beləliklə, iqtisadi və siyasi baxımdan Azərbaycan sabit və son iyirmi ildə 200 milyard dollardan çox sərmayə cəlb edə bilmiş bir ölkədir. Bunların təxminən yarısını xarici sərmayələr təşkil edir. Əlverişli investisiya mühiti və əcnəbi investorlar üçün çox etibarlı investisiya şəraiti şirkətlərə Azərbaycanda işləmək üçün yaxşı imkanlar yaradır.

Biz Polşa şirkətləri ilə həm Azərbaycanda, həm də Polşada tərəfdaş qismində müxtəlif layihələrdə çalışmaq istəyirik. Biz investisiya qoyuluşu ilə bağlı layihələrdə iştirak etmək istəyirik. Biz Polşa şirkətlərini Azərbaycanda həyata keçirilməkdə olan enerji, nəqliyyat, tikinti layihələrində tərəfdaş olmağa dəvət edirik. Biz onları podratçı qismində dəvət edirik. Biz şirkətləri Azərbaycanda və regionda bazar potensialı olan sahələrə sərmayə yatırmağa dəvət edirik. Hesab edirəm ki, belə yaxşı siyasi münasibətlərə və iqtisadi əməkdaşlıq üzrə aydın təsəvvürə malik olmaqla biz çox qısa müddət ərzində uğur qazana, ticarət dövriyyəsini, zənnimcə, bir neçə dəfə artıra və biznes icmaları üçün çox möhkəm təməl yarada bilərik.

Azərbaycan sərhədlərimizdən çox kənara uzanan olduqca önəmli enerji və nəqliyyat layihələrini həyata keçirir. Nəqliyyat sahəsində, cənab Prezidentin qeyd etdiyi kimi, biz artıq dəhlizlərin yaradılması üzrə birgə fəaliyyətə başlamışıq. Azərbaycan nəqliyyat dəhlizlərinin yaradılması üzərində uzun illərdir ki, çalışırdı və indi bütün zəruri nəqliyyat infrastrukturu artıq yaradılmışdır. Bizim bütün qonşularımızla şimal, cənub və qərb istiqamətində dəmir yolu əlaqəmiz var. Bizim bütün təyyarələri qəbul edə bilən altı beynəlxalq hava limanımız var. Bizim yükdaşıma donanmamız dünya miqyasında fəaliyyət göstərən ən aparıcı yükdaşıma donanmalarından biridir. Ölkəmiz regionla ən yeni magistrallar şəbəkəsi ilə birləşir. Biz daşımaların həcmini Xəzər dənizində yeni tikilmiş ən böyük liman vasitəsilə artırırıq. Onun birinci mərhələsi artıq fəaliyyət göstərir və növbəti il dəniz limanının tikintisinin tamamlanması bizə ən azı ildə 15 milyon ton yük və bir milyon ton konteyneri yükləyib-boşaltmaq imkanını verəcəkdir. Artıq Çindən Avropaya gedən sınaq konteyner qatarları Azərbaycandan keçir. Beləliklə, Şərq-Qərb nəqliyyat dəhlizi demək olar ki, icra edilib. Azərbaycan nəinki təkcə ölkə daxilinə sərmayə yatırmış, eyni zamanda, Gürcüstanda dəmir yolunu tikmək üçün 700 milyon dollardan çox maliyyə dəstəyi göstərmişdir. İndiki mərhələdə biz İranda dəmir yolunu tikmək üçün maliyyə dəstəyinin göstərilməsi məqsədilə iranlı qonşularımızla danışıqların ən son mərhələsindəyik. Bu dəmir yolu İran dəmir yollarını bizim dəmir yolları ilə birləşdirəcəkdir. Beləliklə, biz çoxsaylı dəhliz formatını, Azərbaycan ərazisindən keçən, Şimali Avropadan Hindistana qədər uzanan Şimal-Cənub və Çindən Qərbi Avropaya qədər uzanan Şərq-Qərb dəhlizlərini yaratmış olacağıq.

Polyak dostlarımızla üzərində çalışdığımız digər bir layihə isə Cənub-Qərb dəhlizidir. Bunu cənab Prezident də qeyd etmişdir və mən çox şadam ki, Polşa bizim tərəfdaşımızdır. Şimal-Cənub və Şərq-Qərb dəhlizləri vasitəsilə yüklərin Azərbaycan ərazisindən çatdırılma vaxtı ənənəvi marşrutlarla müqayisədə ən azından iki dəfə qısa olacaqdır. Çoxlu işlər görüləcək, var-dövlət əmələ gələcək və layihə özü ilə yeni əməkdaşlıq sahələrini gətirəcəkdir.

Həyata keçirdiyimiz və Avropada çox yüksək səviyyədə dəstəklənən digər bir vacib layihə "Cənub Qaz Dəhlizi" layihəsidir. Bu gün bu layihə Avropaya qazın çatdırılması üçün yeganə yeni mənbədir. Cənub Qaz Dəhlizi Azərbaycanın bir neçə il bundan öncə başladığı layihədir. Bu, dəyəri 40 milyard dollar təşkil edən və demək olar ki, artıq tamamlanan bir layihədir. Bizə bu layihəni 100 faiz tamamlamaq üçün 2-3 il lazımdır. İndi bu layihənin müxtəlif seqmentlərinin icrası 40-95 faiz arasındadır. Bu, Avropaya təbii qazın çatdırılması üçün digər bir mənbə olacaqdır. Bu, enerji şaxələnməsi, enerji təhlükəsizliyi, Avropa bazarlarına təbii qazın davamlı çatdırılması deməkdir. Biz cənab Prezidentlə bu sahədə əməkdaşlığın perspektivlərini müzakirə etdik. Azərbaycan Avropa bazarlarına neftin çatdırılmasında artıq etibarlı tərəfdaşdır. Bizim Polşa ilə əməkdaşlığımız da çox uğurludur. Beləliklə, əməkdaşlığımızın bu aparıcı qüvvələri qlobal enerji, nəqliyyat və təhlükəsizlik layihələri kimi mühüm əhəmiyyət kəsb edir. Lakin, eyni zamanda, onlar bu layihənin bir hissəsi olmaq üçün özəl şirkətlərə böyük imkanlar açır. Mən bir daha Polşa şirkətlərini bizim tərəfdaşımız olmağa dəvət edirəm. Biz daha sıx iqtisadi və işgüzar əlaqələr yaratmaq istəyirik. Polşa bizim üçün yaxın dost və nəinki Avropada, dünya miqyasında böyük potensialı və çox yaxşı mövqeyi olan bir ölkədir.

Bu gün həmkarım Prezident Dudanı böyük müvəffəqiyyət - Polşanın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına demək olar ki, iki yüz ölkənin dəstəyi ilə qeyri-daimi üzv seçilməsi münasibətilə təbrik etdim. Bu, ölkənizə beynəlxalq səviyyədə olan hörmətin və sizin etdiklərinizə verilən qiymətin əlamətidir. Əmin ola bilərsiniz ki, Cənubi Qafqaz və Xəzər regionunda sizin etibarlı dostunuz və tərəfdaşınız var. Bacarıqlı, sözünə əməl edən və əməkdaşlığımızı gücləndirmək istəyən dostunuz var. Əminəm ki, ölkələrimizin biznes icmaları imkanları ətraflı şəkildə nəzərdən keçirəcəklər. Əminəm ki, siz bu gün kənd təsərrüfatı, sənaye, turizm, əczaçılıq və böyük potensialı olan digər əməkdaşlıq sahələrində müxtəlif layihələri müzakirə edəcəksiniz. Biz bunu Prezident Duda ilə artıq müzakirə etdik və əminəm ki, müzakirələriniz və qarşılıqlı əlaqələriniz yaxşı nəticələrin hasil olunmasına gətirib çıxaracaqdır.

Bir daha sizi salamlamaq, forumda iştirak etdiyiniz üçün sizə minnətdarlığımı bildirmək və uğurlar diləmək istəyirəm. Çox sağ olun.

x x x

Sonra biznes forum işini müzakirələrlə davam etdirib. Biznes forumda iqtisadiyyatın müxtəlif sahələrini təmsil edən 150-dən çox, o cümlədən Azərbaycandan 60-dan artıq iş adamı iştirak edib. Forum çərçivəsində Azərbaycanın və Polşanın müxtəlif biznes qurumları və şirkətləri arasında ümumilikdə beş müqavilə və əməkdaşlıq memorandumu imzalanıb.

# Prezident İlham Əliyev Varşavada "Naməlum əsgər" abidəsini ziyarət edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Varşavada "Naməlum əsgər" abidəsini ziyarət edib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, abidənin qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə abidənin yerləşdiyi əraziyə gəldi. Azərbaycanın və Polşanın dövlət himnləri səsləndi. Dövlətimizin başçısı "Əbədi məşəl"in önünə əklil qoydu, xatirə kitabına ürək sözlərini yazdı. Süvari dəstəsi hərbi marşın sədaları altında dövlətimizin başçısının qarşısından keçdi.





# Donald Tramp Prezident İlham Əliyevi təbrik edib

Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, Melania və mən Amerika xalqı adından Sizə və Azərbaycan xalqına Ramazan bayramı münasibətilə səmimi təbriklərimizi çatdırırıq. Amerika Birləşmiş Ştatlarındakı müsəlmanlar bütün dünya müsəlmanları kimi müqəddəs Ramazan ayında dürüstlük və xeyirxahlıq əməllərinə önəm verirlər. Burada, Amerika Birləşmiş Ştatlarında müsəlmanlar Ramazan bayramını ailələri və dostları ilə birlikdə qeyd edir, qonşulara yardım etmək və cəmiyyətin bütün təbəqələrindən olan insanlarla duz-çörək kəsmək ənənəsini davam etdirirlər. Bu bayramı birlikdə qeyd etməyimiz bizə bir daha mərhəmət, şəfqət və xoş niyyətin vacibliyini xatırladır. Bu bayram münasibətilə Amerika Birləşmiş Ştatları həmin dəyərlərə Azərbaycan ilə birgə sadiqliyini bir daha vurğulayır. Bir daha Sizin və Azərbaycan xalqının mübarək bayramını təbrik edirəm. Ramazan bayramınız mübarək olsun".







# "Polşa Azərbaycanın regionda rolunu yüksək qiymətləndirir"

## *Azərbaycan Prezidenti İlham Əliyev Varşavada Polşanın Baş naziri ilə görüşüb*

***İyunun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Varşavada Polşa Respublikasının Baş naziri xanım Beata Şidlo ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Baş nazir Beata Şidlo Prezident İlham Əliyevin Polşaya rəsmi səfərinin ikitərəfli münasibətlərin genişləndirilməsi baxımından önəmini qeyd etdi, Azərbaycan-Polşa biznes forumunun iqtisadi əməkdaşlığın dərinləşdirilməsində əhəmiyyətini vurğuladı. Azərbaycan-Polşa diplomatik əlaqələrinin qurulmasının 25 illiyinin qeyd olunduğunu bildirən Baş nazir ölkələrimiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı.***

Beata Şidlo Polşanın Azərbaycanın regionda rolunu yüksək qiymətləndirdiyini, ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsi istiqamətində səylərini dəstəklədiyini və bu dəstəyin gələcəkdə də davam etdiriləcəyini söylədi. Polşanın Baş naziri səfər çərçivəsində imzalanan sənədlərin əməkdaşlığın daha da genişləndirilməsi üçün möhkəm hüquqi baza yaratdığını dedi. Ölkələrimiz arasında qarşılıqlı ticarət dövriyyəsinin həcminin artırılmasında maraqlı olduqlarını deyən Baş nazir bildirdi ki, Polşa Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi istiqamətində səylərini dəstəkləyir və yüksək qiymətləndirir. Polşa şirkətləri də bu istiqamətdə fəal iştirak etməyə hazırdırlar. Baş nazir hökumətlərarası komissiyanın işinin daha da fəallaşdırılmasının əlaqələrimizin inkişafında önəmini qeyd etdi. Beata Şidlo bildirdi ki, regionda böyük rol oynayan Azərbaycan Polşanın Şərq siyasətində mühüm yer tutur. Baş nazir Azərbaycanın balanslı siyasət həyata keçirdiyini bildirərək, ölkəmizin Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını xüsusi vurğuladı, bu baxımdan Cənub Qaz Dəhlizinin önəmini qeyd etdi. Baş nazir Beata Şidlo ilə əvvəlki görüşünü xatırlayan Prezident İlham Əliyev Polşaya rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsi, qarşıda duran məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi. İkitərəfli əməkdaşlığın uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev Polşanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi münasibətilə təbriklərini çatdırdı. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan və Polşa beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də və Avropa strukturlarında uğurla əməkdaşlıq edirlər. İkitərəfli münasibətlərimizin Azərbaycan-Avropa İttifaqı əlaqələri baxımından önəmini vurğulayan Prezident İlham Əliyev Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın uğurla inkişaf etdiyini, bu istiqamətdə yeni saziş üzərində iş aparıldığını dedi. Prezident İlham Əliyev beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılmasında Azərbaycanın fəal iştirak etdiyini dedi və bu istiqamətdə Polşa ilə əməkdaşlığın yaxşı perspektivlərə malik olduğunu vurğuladı.

Dövlətimizin başçısı ikitərəfli siyasi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayaraq, qarşılıqlı ticarət dövriyyəsinin ölkələrimizin mövcud potensialını tam əks etdirmədiyini, onun artırılması üçün əsas istiqamətlərin müəyyənləşdirilməsində Azərbaycanın maraqlı olduğunu bildirdi. Görüşdə Azərbaycan ilə Polşa arasında nəqliyyat, energetika, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Polşa Respublikasına rəsmi səfəri iyunun 28-də başa çatıb.

# "Azərbaycan-Polşa əməkdaşlığı böyük tarixə malikdir"

## *Azərbaycan Prezidenti İlham Əliyev Polşa Senatının marşalı ilə görüşüb*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Polşa Respublikası Senatının marşalı Stanislav Karçevski ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Stanislav Karçevski Azərbaycana səfərini və Prezident İlham Əliyev ilə görüşünü məmnunluqla xatırladı. Azərbaycan ilə Polşa arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinin qeyd olunduğunu vurğulayan Senatın marşalı bu əlaqələrə böyük əhəmiyyət verdiklərini söylədi, xalqlarımız arasındakı dostluq münasibətlərindən məmnunluğunu ifadə etdi. Stanislav Karçevski Prezident İlham Əliyevin Polşaya rəsmi səfərinin və bu səfər çərçivəsində keçirilən biznes forumun ikitərəfli əlaqələrin müxtəlif sahələrdə gücləndirilməsi baxımından önəmini vurğuladı. O, Polşanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi zamanı Azərbaycanın dəstəyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.***



Parlamentlərarası əməkdaşlığa böyük önəm verdiklərini diqqətə çatdıran Polşa Senatının marşalı Azərbaycanın nəqliyyat dəhlizi imkanlarından istifadə edilməsinin iqtisadi əməkdaşlığın gücləndirilməsi baxımından əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Polşaya rəsmi səfəri çərçivəsində strateji tərəfdaşlığa və müxtəlif sahələrdə əməkdaşlığa dair mühüm sənədlərin imzalanmasının ölkələrimiz arasında dostluq münasibətlərin yaxşı göstəricisi olduğunu bildirdi. Dövlətimizin başçısı Polşanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi münasibətilə təbriklərini çatdırdı. Səfər çərçivəsində iqtisadi əlaqələrimizin mühüm hissəsinin - Azərbaycanın nəqliyyat dəhlizləri və ölkəmizin tranzit imkanlarından istifadə olunması məsələsinin müzakirə edildiyini bildirən Prezident İlham Əliyev bu nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı.

Azərbaycan-Polşa əməkdaşlığının böyük tarixinin olduğunu deyən dövlətimizin başçısı ölkəmizin ikitərəfli əlaqələrin genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev Azərbaycanın Polşa ilə beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən Avropa parlament strukturlarında uğurla əməkdaşlıq etdiklərini bildirdi. Söhbət zamanı Azərbaycan ilə Polşa arasında siyasi, iqtisadi, humanitar, nəqliyyat, turizm və digər sahələrdə əməkdaşlıq əlaqələri ətrafında fikir mübadiləsi aparıldı. Sonda Prezident İlham Əliyev Senatın xatirə kitabına ürək sözlərini yazdı.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

30 iyun 2017-ci il

# Möhtəşəm Formula-1 Azərbaycan Qran-Prisi uğurla başa çatıb

## *Prezident İlham Əliyev Qran-Prinin açılış mərasiminə və final yarışına baxıb*

***Bakıda dünyanın ən nüfuzlu idman yarışlarından biri - Formula-1 Azərbaycan Qran-Prisi iyunun 25-də uğurla başa çatdı. Odlar yurdunun paytaxtı Bakı öz tarixində növbəti dəfə mötəbər beynəlxalq idman yarışına ev sahibliyi etdi. Növbəti dəfə bütün dünyanın idman nəbzi Bakıda - Şərq ilə Qərbin koloritinin cəmləşdiyi bu nadir şəhərdə döyündü. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Formula-1 üzrə dünya çempionatının səkkizinci mərhələsinin - Azərbaycan Qran-Prisinin açılış mərasiminə və final yarışına baxıblar. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yarışın paytaxtın Azadlıq meydanındakı idarəetmə mərkəzində yaradılan şəraitlə tanış oldular.***



Bildirildi ki, böyük ərazini əhatə edən kompleksdə yarışa nəzarət binası, Beynəlxalq Avtomobil Federasiyasının, Formula-1 rəhbərliyinin ofisləri, eləcə də iştirakçıların hər biri üçün dayanacaqlar tikilib. Burada Paddok klubun üzvləri üçün də yerlər nəzərdə tutulub. Paddok klubun üzvləri burada pit-stop əməliyyatlarını rahatlıqla izləyirlər. Məhz bu ərazidə yarışın startı və finişi yerləşir.

Formula-1 Azərbaycan Qran-Prisinin paytaxtın Azadlıq meydanında keçirilən möhtəşəm açılış mərasimi maraqlı anları ilə yadda qaldı. Milli mədəniyyətimizi Formula-1 dəyərləri ilə birləşdirən açılış mərasimi bir çox milli rəmzlərin vəhdətini yaratmaqla yüzlərlə könüllü, azərbaycanlı sənətçilər, milli qruplar və beynəlxalq ifaçılardan ibarət heyət tərəfindən təqdim edildi. Bu anlar bir daha təsdiqlədi ki, dünyada yarım milyard tamaşaçı auditoriyası olan Formula-1-in Bakıda keçirilməsi ölkəmizin beynəlxalq idman aləmində qazandığı uğurları bir daha əks etdirdi. Birinci Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarından sonra Formula-1 kimi mühüm yarışın Bakıda keçirilməsi Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir. Bütün bunlar Azərbaycanın dünyada getdikcə artan nüfuzundan, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetirincə olmasından qaynaqlanır.

Teatrlaşdırılmış səhnələrlə müşayiət olunan açılış mərasimində Azərbaycan mədəniyyətinin incə koloriti, milli rəqslərimiz və ən əsası da xalqımızın əsrlərdən bəri qoruyub saxladığı simvollar dünya tamaşaçılarına canlı yayımda nümayiş etdirildi. Beynəlxalq idman aləmi müstəqillik yolunda uğurla addımlayan Azərbaycanı bir daha tanıdı. Qədim tarixə, zəngin mədəniyyətə, milli-mənəvi dəyərlərə, ən əsası da parlaq idman ənənələrinə malik ölkəmizin güclü potensialı dünyaya bir daha nümayiş etdirildi. Dünya qarşıya qoyulan hər bir məqsədin, hər bir niyyətin sürətli inkişafı ilə örnək olan Azərbaycanda necə uğurla reallaşmasına şahidlik etdi.

Sonra Azərbaycan Respublikasının dövlət himni ifa olundu. Daha sonra Formula-1 Azərbaycan Qran-Prisinin final mərhələsinə start verildi. Hər birində iki pilot olmaqla komandaların bir gün əvvəl keçirilən sıralama yürüşünün nəticəsinə əsasən start xəttinə ən yaxın məsafədə "Mercedes"in pilotları Luis Hamilton və Valtteri Bottas dayandılar. Onlar müvafiq olaraq, ilk iki pillədə qərarlaşdılar. İlk üçlüyü "Ferrari"nin pilotu Kimi Raykonnen tamamladı. Beləliklə, pilotlar qalib adı uğrunda mübarizəyə başladılar.

Bakı trekinin uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometrdir. Pilotlar 20 çətin döngəsi olan trekdə 51 dövrə vurdular. Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trek Bakının tarixi məkanlarından, dəniz sahilindən keçməklə azarkeşlərdə xoş ovqat yaratdı. Yarışları 30 mindən çox tamaşaçının izləməsi üçün tras boyunca hər cür şərait yaradılmışdı. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edirdi.



Bakıda Formula-1 Azərbaycan Qran-Prisinə iyunun 23-də start verilib. Yarışın birinci günündə pilotlar Bakı şəhər halqasında iki sərbəst yürüşdə güclərini sınadılar. İlk sərbəst yürüşdə "Red Bull Racing" komandasının pilotu Maks Ferstappen birinci oldu. Pilot 1 dəqiqə 44,410 saniyəlik nəticə ilə bütün rəqiblərini qabaqladı. Formula-1 Azərbaycan Qran-Prisi çərçivəsində Bakıda Formula-2 yarışları da keçirildi. İyunun 24-də Formula-1 azarkeşləri Azərbaycan Qran-Prisinin ikinci günündə də maraqlı idman mübarizəsinin şahidi oldular. Bu turdan sonra Formula-1 Azərbaycan Qran-Prisinin start düzülüşü müəyyənləşdi.

Formula-1 Azərbaycan Qran-Prisinin qalibi "Red Bull Racing" komandasının üzvü Daniel Rikkiardo oldu. Pilot məsafəni 2 saat 3 dəqiqə 55 saniyəyə qət etdi. İkinci yerə "Mercedes" komandasının üzvü Valtteri Bottas çıxdı. Üçüncü yerdə isə "Williams" komandasının pilotu kanadalı Lans Strol qərarlaşdı. Konstruktorlar kubokunun sahibi isə "Red Bull Racing" komandası oldu. Qalibin şərəfinə Avstriyanın və Avstraliyanın dövlət himnləri səsləndirildi. Sonra qaliblərə mükafatlar təqdim olundu.

Formula-1 Azərbaycan Qran-Prisinin çempionu Daniel Rikkiardoya kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etdi. Konstruktorlar kubokunu "Red Bull Racing" komandasının nümayəndəsinə birinci xanım Mehriban Əliyeva təqdim etdi.

İkinci yerin sahibi "Mercedes"in pilotu Valtteri Bottasa kuboku Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, üçüncü yeri tutan "Williams"ın sürücüsü Lans Strola isə mükafatı Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim etdilər.

Bununla da Formula-1 üzrə dünya çempionatının səkkizinci mərhələsi - Azərbaycan Qran-Prisi başa çatdı.

Qeyd edək ki, Formula-1 Azərbaycan Qran-Prisi dünyada böyük maraq toplayıb. Almaniyalı Herman Tilke tərəfindən layihələndirilən şəhər trası nadirliyi ilə seçilir. Ona görə ki, Monte-Karlo, Melburn, Monako və Sinqapur kimi Azərbaycan Qran-Prisi də şəhər trasına ev sahibliyi edir. Belə ki, Bakıda keçirilən yarış zamanı avtomobillər Dənizkənarı Bulvar boyunca və şəhərin ən qədim hissəsi olan, UNESCO-nun dünya irsi siyahısına daxil edilən İçərişəhər Tarix-Memarlıq Qoruğunun ətrafında dövr edirlər. Beləliklə, yarışı izləyən televiziya tamaşaçıları və qonaqlar Azərbaycan paytaxtının tam simasını görmək imkanı qazanırlar.

Beləliklə, bu il keçirilən səkkiz Qran-Prinin üçündə qalib gələn "Ferrari"nin almaniyalı pilotu Sebastian Vettel 153 xalla çempionata liderlik edir. "Mercedes"in britaniyalı pilotu Luis Hamilton 139 xalla ikinci, onun komanda yoldaşı, finlandiyalı Valtteri Bottas isə 111 xalla üçüncü sırada qərarlaşıblar. Bakı Qran-Prisinin qalibi, "Red Bull Racing" komandasının avstriyalı pilotu David Rikkiardo isə 92 xalla dördüncü sıradadır. Formula-1 birnəfərlik, açıq təkərli avtomobil yarışları üzrə dünya çempionatıdır. Bu yarışlar 1950-ci ildən etibarən müntəzəm olaraq keçirilir. Qeyri-rəsmi olaraq, Formula-1 sürücüləri pilot, avtomobillər isə bolid adlandırılır. Formula-1 yarışları Beynəlxalq Avtomobil Federasiyasının müəyyən etdiyi qaydalara əsasən təşkil olunur. Yarışlar il ərzində müxtəlif ölkələrdə keçirilən mərhələlərdən ibarət olur. Hər mərhələyə Qran-Pri adı verilir. İlin sonunda bütün Qran-prilərdən toplanan xalların əsasında pilotlar və komandalar arasında qalib müəyyənləşdirilir və mükafatlandırılır. Formula-1 yarışları dünyada ən çox tamaşaçı auditoriyasına sahib yarışlardan biridir. 1950-ci ildə keçirilən ilk yarışda kuboku "Alfa Romeo" komandası və onun italiyalı pilotu Cüzeppe Farina qazanıb. Ən çox çempion adına "Ferrari" komandasının əfsanəvi alman pilotu Mixail Şumaxer sahib olub. O, Formula-1 yarışlarında yeddi dəfə çempion olub.



## Prezident İlham Əliyev Rusiyanın "Zavtra" qəzetinin baş redaktorunu qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Rusiya Federasiyasının "Zavtra" qəzetinin baş redaktoru, yazıçı Aleksandr Proxanovu qəbul edib. AZƏRTAC xəbər verir ki, ulu öndər Heydər Əliyev ilə görüşlərini dərin ehtiramla xatırlayan Aleksandr Proxanov Ümummilli Liderlə söhbətlərin çox maraqlı keçdiyini bildirdi. Qonaq Azərbaycana gəlişindən məmnunluq hissi keçirdiyini qeyd edərək, regionlarımıza səfər etdiyini və ölkəmizdəki inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını vurğuladı.

Prezident İlham Əliyev Rusiyanın "Zavtra" qəzetinin baş redaktoru, yazıçı Aleksandr Proxanovun Azərbaycana səfərinin səmərəli və maraqlı olacağına ümidvar olduğunu bildirdi.

Görüşdə Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Humanitar sahədə əməkdaşlığımızın genişləndirilməsində Azərbaycan və Rusiya ziyalılarının əlaqələrinin rolu vurğulandı, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlər bütün sahələrdə uğurla inkişaf edir

*Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Baş nazirinin müavinini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Kozakı qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə paytaxtımızda təşkil olunan Formula-1 yarışlarının beynəlxalq səviyyədə böyük maraq doğurduğu bildirildi və bu yarışların çox yüksək səviyyədə təşkil edildiyi vurğulandı. Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Kozak Bakıda keçirilən Formula-1 yarışlarında ilk dəfə olduğunu qeyd edərək, şəhərdə gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını vurğuladı.



Söhbət zamanı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi qeyd edildi, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Formula-1-in rəhbər şəxslərini qəbul edib

İyunun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Formula-1-in sədri və icraçı direktoru Çeyz Kerini, Formula-1 Motorsportun direktoru Rous Braunu və Formula-1-in kommersiya və marketinq üzrə direktoru Şon Bratçesi qəbul edib. AZƏRTAC xəbər verir ki, Formula-1 yarışlarının Azərbaycanda keçirilməsindən məmnunluğunu bildirən dövlətimizin başçısı dedi ki, ötənilki yarışlardan sonra ölkəmizdə turizm sahəsində 25 faiz artım olub. Prezident İlham Əliyev Bakıda Formula-1 yarışlarının şəhər halqası trekində keçirilməsinin paytaxtımızın daha da yaxından tanınmasına imkan yaratdığını bildirdi. Dövlətimizin başçısı yarışların dünyada böyük sayda tamaşaçı auditoriyası tərəfindən izlənildiyini vurğuladı. Bakıda olmaqdan məmnunluğunu ifadə edən və zəngin təəssüratlarının olduğunu deyən Formula-1-in sədri və icraçı direktoru Çeyz Keri paytaxtımızın çox gözəl və möhtəşəm şəhər olduğunu bildirdi. O, şəhəri gəzməkdən və Bakının gözəl mənzərəsini seyr etməkdən məmnunluğunu ifadə etdi. Çeyz Keri yarışlar üçün Bakıda çox gözəl şəraitin yaradıldığını xüsusi vurğuladı.



## Prezident İlham Əliyev "VTB Bank"ın prezidenti, idarə heyətinin sədrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də "VTB Bank"ın prezidenti, idarə heyətinin sədri Andrey Kostini qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Bakıda yüksək səviyyədə təşkil edilən Formula-1 yarışlarının dünya səviyyəsində əhəmiyyəti qeyd olundu. Söhbət zamanı "VTB Bank"ın uzun il Azərbaycanda səmərəli fəaliyyət göstərdiyi bildirildi, ölkələrimiz arasında bank əməkdaşlığı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



## Prezident İlham Əliyev Bakıda yeni salınan yolun açılışında iştirak edib

İyunun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Yusif Səfərov küçəsinə paralel salınan yeni yolun açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, "Azəravtoyol" ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına yeni yolun texniki göstəriciləri barədə məlumat verdi. Bildirildi ki, üç hərəkət zolaqlı yolun inşası zamanı layihəyə uyğun olaraq yolboyu maneələr sökülüb, kommunikasiya xətləri köçürülüb. Piyadaların təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yolun hər iki tərəfində səkilər salınıb, müasir işıqlandırma dirəkləri qoyulub. Layihə çərçivəsində burada avtobus dayanacağı quraşdırılıb. Bütün işlər texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək keyfiyyətlə, eyni zamanda, qısa vaxtda yerinə yetirilib. Xatırladaq ki, Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da dövlətimizin başçısı tıxacların aradan qaldırılmasında yeni yolun əhəmiyyətini vurğulayıb. Bu layihənin icrası yeni yolların salınması ilə bağlı Prezident İlham Əliyevin birbaşa göstərişi və rəhbərliyi ilə həyata keçirilən ardıcıl tədbirlərdən biridir. Eyni zamanda, bu cür tədbirlər paytaxtımızın yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, Bakı şəhərində tıxacların aradan qaldırılması baxımından da çox önəmlidir. Belə ki, yeni yol avtonəqliyyat vasitələrinin birbaşa Yusif Səfərov küçəsinə daxil olmadan Heydər Əliyev prospektindən Kövkəb Səfərəliyeva küçəsinə, oradan da Dilarə Əliyeva küçəsi ilə şəhərin mərkəzinə doğru hərəkət etməsinə əlverişli imkan yaradır. Həmçinin Heydər Əliyev prospektindən gələn sürücülər Yusif Səfərov küçəsinə daxil olmadan metronun 28 May stansiyası və Heydər Əliyev Sarayı istiqamətinə rahat hərəkət edəcəklər. Beləliklə, bu yolun istifadəyə verilməsi Yusif Səfərov küçəsində tıxacların yaranmasının qarşısını alacaq. Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.



# Məcburi köçkün ailələrinə Masazır qəsəbəsində yeni mənzillərin verilməsi mərasimi olub

## *Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə iştirak edib*

***Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması layihəsinin icrası çərçivəsində iyunun 27-də Abşeron rayonunun Masazır qəsəbəsində yeni mənzillərin verilməsi mərasimi keçirilib.***

***AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva mərasimdə iştirak edib.***

***Xanım Mehriban Əliyeva mərasimdə çıxış edib:***

-Hörmətli mərasim iştirakçıları, əziz dostlar. İlk növbədə, sizin hər birinizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqına əmin-amanlıq, yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıram. Ramazan ayı dünya müsəlmanlarını sülh və birlik yoluna, xeyirxah əməllərə, saf niyyətlərə, mərhəmətə və mənəvi kamilliyə dəvət edir. Ramazan ayı bizim hər birimizi ehtiyacı olan, çətinliklərlə üzləşən insanlara yardım etməyə dəvət edir. Bugünkü görüşümüz bu baxımdan rəmzi məna daşıyır. Ermənistanın işğalçı siyasətindən əziyyət çəkən soydaşlarımızın bir qismi bu gün yeni mənzillərlə təmin olunur, onların yaşayış şəraiti yaxşılaşır. Sizin həyatınızda yeni dövr başlayır. Sizin həyat tərziniz yaxşılaşacaq. Mən bu münasibətlə sizi ürəkdən təbrik edirəm, yeni mənzillərinizdə sizə xoşbəxt ömür arzulayıram.

Ermənistanın artıq 20 ildən çoxdur ki, davam edən işğalçı siyasəti nəticəsində ölkəmizdə bir milyon qaçqın və məcburi köçkün mövcuddur. Bu insanların problemlərinin həlli, onların yaşayış şəraitinin yaxşılaşdırılması, iş, təhsil, tibb və digər xidmətlərlə təmin edilməsi Azərbaycan dövlətinin daim diqqət mərkəzindədir. İyirmi ildən çoxdur ki, bu sahədə ardıcıl olaraq bütün lazımi tədbirlər həyata keçirilir, addımlar atılır. Bildiyiniz kimi, - baxmayaraq ki, müstəqilliyimizin ilk illərində dövlətimiz böyük çətinliklərlə üzləşmişdir, - Azərbaycan Hökuməti ölkəmizdə mövcud olan bütün çadır şəhərciklərini qısa bir zamanda ləğv etdirmişdir. Azərbaycanda məcburi köçkün ailələri üçün 100-dək müasir yaşayış kompleksi inşa olunmuşdur. Bu qəsəbələrdə bütün lazımi infrastruktur yaradılmışdır. Qəsəbələr məktəb və bağçalarla təmin olunmuşdur. Dörd yüz mindən çox məcburi köçkün iş yeri ilə təmin edilmişdir. Bu gün də soydaşlarımızın işlə təmin olunması sahəsində dövlət proqramları həyata keçirilir. Bir daha qeyd etmək istəyirəm ki, bu, Azərbaycan dövləti üçün ən ağır, ən vacib problemdir. Azərbaycan dövləti bu problemin həlli üçün bütün lazımi tədbirləri görür və bu siyasət bundan sonra da davam etdiriləcəkdir.




Mən öz fəaliyyətimdə sosial problemlərin, xüsusilə də qaçqın və məcburi köçkün ailələrinin problemlərinin, çətinliklərinin həllinə xüsusi diqqətlə yanaşıram. Birinci vitse-prezident vəzifəmdə ilk müşavirəm məhz bu problemlərin həllinə yönəlmişdir. Bizim qarşımızda duran məqsəd ilkin mərhələdə Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı, yarımçıq tikilmiş binalarda məskunlaşmış dörd min məcburi köçkün ailəsini yeni mənzillərlə təmin etməkdir. Bunun üçün bütün lazımi göstərişlər verilib, artıq tədbirlər görülür və əminəm ki, biz bu məqsədimizə nail olacağıq. Bu ilin may ayında Qaradağ rayonunun Lökbatan qəsəbəsinin yaxınlığında 1026 ailəlik yeni yaşayış qəsəbəsinin təməli qoyuldu. Bu qəsəbədə bütün lazımi infrastruktur - tibb məntəqəsi, 600 şagird yerlik məktəb, uşaq bağçası inşa olunacaq. Burada artıq inşaat işləri başlayıb. Əminəm ki, işlər qısa bir zamanda başa çatdırılacaq və bu gün çox ağır vəziyyətdə yaşayan daha 1026 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunacaq.



Azərbaycan dövləti tərəfindən bu tədbirlərin icrası üçün, ümumilikdə, 6 milyard manatdan çox vəsait ayrılmışdır. Bu gün Azərbaycanda qaçqın və məcburi köçkünlərə dövlət tərəfindən ayrılmış vəsait nisbət etibarilə dünyanın ən yuxarı göstəriciləri arasındadır. Azərbaycan dövlətinin bu sahədə əldə etdiyi nailiyyətlər, bizim təcrübəmiz artıq dünyada bir model kimi qəbul olunur.

Bir daha qeyd etmək istəyirəm ki, bu gün Azərbaycan qüdrətli, güclü dövlətdir və qarşıda duran məsələlərin həlli üçün bütün lazımi addımlar atılır, bütün lazımi tədbirlər həyata keçirilir. Çox xoşdur ki, dövlətlə yanaşı, biznes strukturları da, iş adamları da bütün cəmiyyətimiz üçün vacib olan bu problemə biganə qalmayıb və onlar da bu ağır problemin həllinə öz töhfələrini verməkdədirlər.

Bu gün Xəzər rayonunun Şüvəlan qəsəbəsində yararsız binada və Xətai rayonunda yarımçıq tikilmiş binada məskunlaşmış 214 ailə Masazır və Mehdiabad qəsəbələrində yeni inşa olunmuş və tam təmirli mənzillərə köçürülür. Məhz iş adamlarının yardımı ilə bu gün 214 ailənin yaşayış şəraiti yaxşılaşacaq. Fürsətdən istifadə edərək, həmin şirkətlərə dərin minnətdarlığımı bildirirəm. Hesab edirəm ki, bu, çox təqdirəlayiq bir haldır. Ümidvaram ki, digər iş adamları, ölkəmizdə fəaliyyət göstərən digər biznes strukturları da gələcəkdə bu təşəbbüsə qoşulacaqlar. Bu, bizim cəmiyyətimizin birliyinin göstəricisidir, eyni zamanda, Azərbaycanın ən gözəl ənənələrindən biri olan xeyriyyəçilik ənənəsinin davamıdır.

***Ardı Səh. 11***



# Məcburi köçkün ailələrinə Masazır qəsəbəsində yeni mənzillərin verilməsi mərasimi olub

*Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə iştirak edib*






Əvvəli Səh. 10

Mən hesab edirəm ki, ölkəmizdə fəaliyyət göstərən biznes strukturları, iş adamları, özəl sektor sosial məsuliyyət haqqında ciddi düşünməli və cəmiyyətimizi narahat edən problemlərin həllində fəal iştirak etməlidirlər. Xüsusilə də onlar bizim hər birimiz üçün ən ağır problem olan qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitini yaxşılaşdırmaq işində iştirak etməlidirlər.

Azərbaycan dövləti öz vətəndaşlarına, xüsusən də sizlərə - böyük çətinliklərlə üzləşən qaçqın və məcburi köçkün ailələrinə hər zaman diqqətlə yanaşır, öz qayğısını göstərir. Hər bir azərbaycanlının ən böyük arzusu torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasıdır. Hamımızın arzusu budur ki, hər bir qaçqın və məcburi köçkün doğma yurduna, doğma torpağına qayıtsın. Arzumuz budur ki, işğaldan azad olunan kəndlərimiz, şəhərlərimiz bərpa edilsin, yeni qəsəbələr salınsın və insanlar normal həyat tərzinə qayıtsınlar. Dövlətimiz bunun üçün əlindən gələni edir. Biz isə bu yolda birlik nümayiş etdirməliyik və inanmalıyıq ki, qarşımızda duran bütün məqsədlərə mütləq çatacağıq. Mən bir daha sizin hər birinizi ürəkdən təbrik edirəm, sizə cansağlığı və yeni uğurlar arzulayıram. Çox sağ olun.

***

Füzuli rayonundan məcburi köçkün Rafiz Kərimov çıxış edib:

-Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva, hörmətli mərasim iştirakçıları. İcazə verin, hamınızı Ramazan bayramı münasibətilə təbrik edim, sizə cansağlığı, xoşbəxtlik arzulayım. Hörmətli Mehriban xanım, icazə verin bu fürsətdən istifadə edib Birinci vitse-prezident təyin edilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edim və Azərbaycan Prezidenti İlham Əliyevə bu təyinatına görə təşəkkürümü və minnətdarlığımı çatdırım.

Hörmətli Mehriban xanım, Sizin həm ölkə daxilindəki, həm də xaricdəki əməli fəaliyyətiniz Azərbaycan xalqının gözü qabağındadır. Müstəsna hal olaraq qeyd edim ki, xarici ölkələrdə Azərbaycan tarixinin, mədəniyyətinin, incəsənətinin təqdim edilməsində şəxsən Sizin Azərbaycan vətəndaşı kimi böyük xidmətləriniz olmuşdur və bunun sayəsində Azərbaycan bu gün sülhsevər bir ölkə kimi, idman, mədəniyyət mərkəzi kimi tanınır.



Mehriban xanım, biz 20 ildən çoxdur Xəzər rayonunun ərazisində məskunlaşmışıq. Çətinliklərlə də rastlaşmışıq, problemlərimiz də olub. Lakin Sizin deputat olarkən də gördüyünüz işlər məhz bizim gözümüzün qabağında olub. İstər səhiyyə, istər elm sahəsində, istər ərazidə olan yeni quruculuq işlərində, - mən hamısını bir-bir sadalayıb vaxtınızı almaq istəmirəm, - məktəbindən, bağçasından, yolundan tutmuş hamısında Sizin əməyiniz var və fəaliyyətiniz olub. Buna görə də bir daha Sizə minnətdarlığımızı bildiririk.

Qarabağ müharibəsi veteranı Rafiz Kərimov ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Horadiz əməliyyatında, Füzuli rayonunun 20 kəndinin və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin azad olunmasında şəxsən iştirak etməsindən fəxr hissi keçirdiyini bildirdi. Bu siyasətin bu gün də davam etdirildiyini deyən Rafiz Kərimov bu bayram günlərində ikiqat sevinc yaşadıqlarına görə bir daha məcburi köçkünlər adından Mehriban Əliyevaya minnətdarlıq etdi.

***

Şuşadan olan məcburi köçkün Vüsalə Fətəliyeva paytaxtın Xəzər və Xətai rayonlarında qəzalı binalarda yaşayan insanların mənzil şəraitini yaxşılaşdırdığına görə Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıq edib:

-Hörmətli birinci xanım, Siz bu missiyanı Heydər Əliyev Fondunun, Mədəniyyət Fondunun rəhbəri olandan və Qarabağ həqiqətlərini dünyaya çatdırandan başlamısınız. Siz bir rəhbər kimi Qarabağın mədəniyyətini, musiqisini, idmanını, xalçalarını, rəsm əsərlərini, Qarabağa aid olan hər şeyi öz dili ilə dünyaya çatdırdınız ki, bütün dünya Qarabağın keçmişini tanısın, onun sahib olduğu torpaqların yiyəsi olduğunu bir daha bilsin. Bu, böyük, çətin məsələ idi. Bu missiyanı davam etdirərək Siz bütün Azərbaycanda, o cümlədən məcburi köçkünlərin həyatında çox vacib olan “Yeniləşən Azərbaycana yeni məktəb” layihəsini reallaşdırdınız ki, bu, insanların bilikli və savadlı olmaları, dünya həqiqətlərini həm dərk etmələri, həm yaymaları üçün önəmli şərt idi.

Sizin Birinci vitse-prezident kimi ilk müşavirənizdə dediyiniz bir fikri xatırlatmaq istəyirəm. Siz dediniz ki, insanların rifah halını yaxşılaşdırmaq çox vacib şərtdir. İnsanların rifah halının yaxşılaşması üçün onların mənzillə təmin olunması vacib şərtdir. Ancaq bu, onların torpaqlarına qayıtmaları üçün əsas vasitə deyil. Hər kəs öz doğma yurduna qayıdacaq və bunlar müvəqqəti ünvanlar olacaq. Siz yekun nitqinizdə söylədiniz ki, insanların həyatı üçün iki amil vacib şərtdir. Birincisi mənzil, ikincisi isə iş. Bu böyük bir reallıq idi və bu reallığı hamıya qismət etdiyiniz üçün Sizə dərin təşəkkür edirik.

***

Sonra Laçın rayonundan məcburi köçkün Zabilə Cəfərova çıxış edib:

-Hörmətli Mehriban xanım, Azərbaycanın Birinci vitse-prezidenti kimi qaçqın və məcburi köçkünlərə göstərdiyiniz xüsusi qayğıya görə onların adından Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin bizə göstərdiyiniz qayğının nəticəsidir ki, bu yaxınlarda - 2017-ci il mayın 30-da Qaradağ rayonu ərazisində köçkünlərin yaşayışının yaxşılaşdırılması üçün 1026 nəfərlik ailənin yaşayış kompleksinin təməli qoyulub. Bu gün də bu tədbirin təşkili biz məcburi köçkünlərin hədsiz sevincinə səbəb oldu. Bizi o ağır, şəraitsiz vəziyyətdən bu yeni rahat mənzillərə köçürməklə hər birimizin ailəsinə sevinc bəxş etdiniz. Əlbəttə, öz doğma yurd-yuvalarından didərgin düşmüş insanlar üçün tikilən evlər, salınan qəsəbələr yaşayış şəraitinin yaxşılaşdırılması üçün lazımdır. Biz bilirik ki, bu ünvanlarda müvəqqəti məskunlaşırıq. Əminik ki, cənab Prezidentin və Sizin yürütdüyünüz siyasət nəticəsində biz tezliklə Qarabağa, öz doğma yurdlarımıza qayıdacağıq. Dünyanın heç bir yerində qaçqın və köçkünlərə bizdəki qədər qayğı göstərilmir. Biz qaçqın və məcburi köçkünlər hər zaman Sizin və Prezidentimizin diqqət və qayğısını görürük.

***

Laçın rayonundan məcburi köçkün Əmirxan Zeynalov da çıxışında Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən işlərin ölkəmizə uğurlar gətirdiyini bildirdi. Mehriban xanımın mədəniyyətin, sosial sahənin inkişafı ilə bağlı gördüyü işlərin, xüsusilə valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün evlər tikdirməsinin böyük mənəvi əhəmiyyətinin olduğunu deyən Əmirxan Zeynalov onun deputat olduğu dövrdə Xəzər rayonunda gördüyü böyükmiqyaslı quruculuq işlərindən danışdı. O, Mehriban Əliyevanın xalqa bağlılığının təsadüfi olmadığını, bunun xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasətindən qaynaqlandığını vurğuladı.

Ardı Səh. 12

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

30 iyun 2017-ci il

# Məcburi köçkün ailələrinə Masazır qəsəbəsində yeni mənzillərin verilməsi mərasimi olub

## *Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə iştirak edib*



Əvvəli Səh. 11

***

Onun fəaliyyətinə verilən yüksək qiymətə görə minnətdarlığını bildirən Birinci vitse-prezident Mehriban Əliyeva dedi:

-Əziz bacılarım, əziz qardaşlarım. Mənim barəmdə və fəaliyyətim haqqında dediyiniz bu xoş sözlərə görə sizə dərin minnətdarlığımı bildirirəm. Qeyd etmək istəyirəm ki, istər Heydər Əliyev Fondunda, istər Azərbaycan Mədəniyyət Fondunda mənim fəaliyyətimdə, istər bugünkü çox məsuliyyətli vəzifəmdə məhz sizlər mənim güc mənbəyimsiniz. Çünki mən atdığım hər addımda, hər bir insanla, çox sevdiyim Azərbaycan xalqı ilə ünsiyyətdə olanda doğrudan da sizin sevginizi, dəstəyinizi, inamınızı hiss edirəm. Mənim üçün bu, çox vacibdir.

Azərbaycanın müstəqilliyi bərpa olunandan bəri tarix baxımından çox da uzun bir müddət keçməyib. Amma Azərbaycan bütün sahələrdə - iqtisadiyyatda, siyasətdə, sosial, idman, mədəniyyət sahələrində əldə etdiyi nailiyyətlərlə bu gün dünya xəritəsində öz layiqli sözünü deyir. Əminəm ki, bütün bu uğurların təməlində Azərbaycan xalqı durur.

Siz bu gün xatırlatdınız ki, son illər ölkəmizdə çox böyük beynəlxalq tədbirlər keçirilib. Təbii ki, ölkəmizə dünyadan gələn qonaqların, turistlərin sayı artır. Biz bu insanlarla görüşürük, ünsiyyətdə oluruq. Əlbəttə, onların hamısı Bakının gözəlliyindən, ölkəmizin inkişafından, Azərbaycanın mətbəxindən danışırlar. Amma xüsusi vurğulayırlar ki, burada çox gözəl, ürəyiaçıq, istiqanlı, qonaqpərvər insanlar yaşayırlar. Düzdür, gözəllik, abadlıq çox vacibdir. Amma əgər gözəl bir yerə gəlirsən və insanların simasında, necə deyərlər, nifrət, hirs görürsənsə, heç vaxt insan orada özünü rahat hiss etmir. Bütün qonaqlar məhz bunu deyirlər ki, siz xoşbəxtsiniz, sizin insanlarınız nə qədər gözəl və mərhəmətlidirlər. Mən buna çox inanıram və bununla fəxr edirəm. Fəxr edirəm ki, bizim xalqımız doğrudan da belə böyük ürəyə malikdir. Mən inanıram ki, qarşımızda duran məsələlərin, problemlərin, - onlar var və çoxdur, biz çox çətin bir dünyada yaşayırıq, - həlli üçün insanın xoş niyyəti, mərhəməti, insanlığı çox vacibdir və bunlar bizim xalqda var. Ona görə də biz mütləq bütün arzularımıza çatacağıq, ədalət bərpa olunacaq, Qarabağ problemi həllini tapacaq, siz hamınız öz doğma yurdlarınıza qayıdacaqsınız və biz bunu orada bir yerdə qeyd edəcəyik. Mən bir daha sizə öz dərin hörmətimi və məhəbbətimi çatdırıram. Çox sağ olun.

***

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Masazır qəsəbəsində məcburi köçkün ailələri üçün yeni mənzillərdə yaradılan şəraitlə tanış oldu. Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov məlumat verdi ki, Masazır qəsəbəsində "Yeni Bakı" yaşayış kompleksində 164 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunub. Bundan başqa, Mehdiabad qəsəbəsindəki Binəqədi Gənclər şəhərciyində 50 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin edilib. Mənzillər təmirlidir və mətbəx mebelləri ilə təchiz olunub. Ümumilikdə sözügedən 214 mənzil Xəzər rayonunun Şüvəlan qəsəbəsindəki "Energetika" pansionatında yararsız binada və Xətai rayonunun Gəncə prospektindəki qəzalı vəziyyətdə olan binada məskunlaşan məcburi köçkünlər üçün nəzərdə tutulub.

Xatırladaq ki, 2017-ci il martın 9-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirə keçirilmişdi. Müşavirədə bu günədək qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlərlə yanaşı, hələ də ağır vəziyyətdə, qəzalı və yararsız binalarda kifayət qədər çox məcburi köçkün ailəsinin yaşadığı və bu istiqamətdə işlərin sürətləndirilməsi üçün təxirəsalınmaz addımların atılmalı olduğu bildirilmişdi. Bunun üçün Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı binalarda yaşayan bütün köçkün ailələrinin tezliklə yeni mənzillərə köçürülməsi barədə tapşırıq verilmişdi. Bu gün isə Ramazan bayramı günlərində 214 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin edilib.

***

Birinci vitse-prezident Mehriban Əliyeva Xocalıdan şəhid ailəsi Ulduzə Xocayevanın mənzilində oldu, onları yeni mənzilə köçməsi münasibətilə təbrik edərək dedi:

-Sizi təbrik edirəm. Çox sevinirəm ki, siz indi belə bir şəraitdə yaşayırsınız.

Ulduzə XOCAYEVA: Çox sağ olun. Sizin bizə etdiyiniz bu köməyə görə mən bilmirəm necə minnətdarlıq edim. Siz çox gözəl işlər görürsünüz. Mən əvvəlki yaşayış yeri ilə indiki mənzili müqayisə edə bilmərəm.

Mehriban ƏLİYEVA: Bizim indi məqsədimiz ən çətin vəziyyətdə yaşayan dörd min ailənin iki il ərzində köçürülməsidir. Mən əminəm ki, biz birlikdə bu məqsədə nail olacağıq. Artıq dövlət tərəfindən də binalar tikilir. Tikilmiş binalarda mənzillər ayrılır, təmir olunur. Çox yaxşıdır ki, biznes strukturları da bu işə qoşulub. Onlar da yardım edirlər.

Ulduzə XOCAYEVA: Biz Sizin yaxşı işləriniz barədə xəbərləri televizorda görür, sevinirik. Bu gün bizə bu cür şəraiti yaratdığınıza görə ürəyim sözlə doludur, hansını deyim ki, qəlbim rahatlaşsın.

Mehriban ƏLİYEVA: Mənim üçün əsas odur ki, sizin artıq yaxşı şəraitiniz var, normal şəraitdə yaşayırsınız, o əzablardan canınız qurtarıb.

Ulduzə XOCAYEVA: Sizin sayənizdə mən də, övladlarım da bu gündən sonra belə bir şəraiti olan mənzildə yaşayacağıq. Ona görə də bilmirəm Sizə necə dua edim ki, ürəyim rahatlaşsın. Çox gözəl şəraitimiz, rahat yollarımız var. Hamısı göz qabağındadır. Mehriban xanım, çox sağ olun, təşəkkür edirik, Allah Sizə cansağlığı versin. Prezidentimizin də, Sizin də bizə - məcburi köçkünlərə, şəhid ailələrinə çox böyük hörmətiniz var.

Mehriban ƏLİYEVA: Çox sağ olun. Prezidentin də böyük salamları var. Tapşırdı ki, mən salamlarını, hörmətini sizə çatdırım. Mən sizi əmin edirəm ki, Prezidentin bütün fəaliyyəti yalnız və yalnız Azərbaycan xalqının rifah halının yaxşılaşdırılmasına, ölkəmizin güclənməsinə, insanların daha yaxşı şəraitdə yaşamasına yönəlib. Əlbəttə ki, əhalimizin qaçqınlar və məcburi köçkünlər təbəqəsi ən böyük diqqətə layiqdir. Həm Azərbaycan Prezidenti, həm də dövlət qurumları onların üzləşdiyi çətinlikləri aradan qaldırmaq üçün əllərindən gələni edir və edəcəklər. Mən çox şadam ki, cəmiyyətimizdə birlik var. Azərbaycan xalqı elə xalqdır ki, hər zaman qonşusuna, yaxınına, dostuna, heç tanımadığı insana da yardım etməyə hazırdır. Bu, xalqımızın çox gözəl adətidir, xasiyyətidir. Bu birliyimiz, bu gözəl xüsusiyyətlərimiz olduğuna görə biz qarşımızda duran bütün məqsədlərə nail olacağıq. Biz bir olmalıyıq və hər kəs öz vəzifəsinə çox böyük məsuliyyətlə yanaşmalıdır. Ali məqsəd ancaq və ancaq Azərbaycan insanına, Azərbaycan vətəndaşına xidmətdir. Bugünkü nailiyyətlər, Azərbaycanın bugünkü qüdrəti, gücü, inkişafı məhz buna görədir. Sizin neçə övladınız var?

Ulduzə XOCAYEVA: Altı uşağım, 27 nəvə-nəticəm var.

Mehriban ƏLİYEVA: Maşallah, Allah saxlasın.

Ulduzə XOCAYEVA: Şadam ki, övladlarımızı, özümüzü yada salırsınız, qayğımızı çəkirsiniz. Çox razıyam, Allah Sizə həmişə kömək olsun. Əvvəllər Azərbaycanı o qədər də tanımırdılar. Ulu Öndərimizin, Prezidentimizin və Sizin sayənizdə indi hamı Azərbaycanı tanıyır. Çox sağ olun, dərin minnətdarlığımızı bildiririk. Sizə cansağlığı, bütün işlərinizdə yüksək nailiyyətlər arzulayıram.

Mehriban ƏLİYEVA: Çox sağ olun. Bilirsiniz ki, mən son illər Qarabağ şəhidlərinin anaları ilə, bacıları ilə, məcburi köçkün ailələri ilə tez-tez ünsiyyətdə oluram, onların qarşısında baş əyirəm. Onlar çox böyük hörmətə layiqdirlər. Çünki siz çox çətin vəziyyətdən, çox çətin anlardan keçmisiniz, yaşamısınız, əzizlərinizi itirmisiniz, şəhid vermisiniz və sonra da çox çətin həyat sürmüsünüz. Ona görə də sizdə olan bu dözümlülük, güc, qüvvət, Vətənə bağlılıq, geniş ürək - bunlar hamısı böyük hörmətə və ehtirama layiqdir.

Ulduzə XOCAYEVA: Sizin belə işlərinizi görəndə fəxr edirik, inanırıq ki, inşallah, tezliklə doğma torpaqlarımıza, yurd-yuvamıza qayıdacağıq.

Mehriban ƏLİYEVA: İnşallah. Mən də, Azərbaycan Prezidenti də sizə cansağlığı arzulayırıq. Biz qarşımızda duran bütün məqsədlərə birlikdə nail olacağıq. Çox sağ olun. Sizə xoşbəxtik, uğurlar, uzun ömür arzu edirəm.

***

Sonda xatirə şəkli çəkdirildi.

## Leyla Əliyevanın təşəbbüsü ilə Bakı Zooloji Parkında yenidənqurma işləri başlayır

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 80 ildən çox fəaliyyətdə olan Bakı Zooloji Parkında yenidənqurma və bərpa işləri başlayır. Qeyd edək ki, Bakı Zooloji Parkının təmiri ilə bağlı ətraf mühit və heyvanların qorunması üzrə fəaliyyəti ilə seçilən Leyla Əliyevaya şəhər sakinləri tərəfindən çoxsaylı müraciətlər ünvanlanıb.




AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva iyunun 28-də Bakı Zooloji Parkını bir daha ziyarət edərək buradakı mövcud vəziyyət və görüləcək işlərlə tanış olub. Həyata keçiriləcək təmir-quruculuq tədbirləri çərçivəsində Zooloji Parkın ərazisinin genişləndirilməsi, ziyarətçilər üçün daha rahat məkana çevrilməsi, heyvanların saxlanma şəraitinin yaxşılaşdırılması və ərazidə müxtəlif əyləncə obyektlərinin istismara verilməsi nəzərdə tutulub.



Yenidənqurma işləri nəticəsində zooparkın ərazisi iki dəfə genişləndiriləcək. Heyvanların öz arealına daha yaxın şəraitdə yaşamalarını təmin etmək, həm də sakinlərin və şəhərimizin qonaqlarının rahat və zövqoxşayan ziyarətlərini təşkil etmək məqsədilə zooparkda daha təbii mühit yaradılacaq, müasir dizayn olunacaq.

Zoopark fiziki qüsurlu şəxslərin, həmçinin bütün yaş qruplarından olan ziyarətçilərin rahatlıqla istirahət edəcəyi və maarifləndəcəyi məkan olacaq. Zooparkın əməkdaşları üçün beynəlxalq təcrübəli mütəxəssislər tərəfindən təlimlər keçiriləcək. Heyvanlar EAZA (Avropa Zoopark və Akvariumlar Assosiasiyası) standartlarına uyğun şəraitdə saxlanılacaq. Heyvanların saxlandığı qəfəslər (volyerlər) hər növün özünəməxsus ehtiyacları nəzərə alınaraq hazırlanacaq və onların sahəsi genişləndiriləcək. Ziyarətçilər heyvanların təbii davranışlarını izləyə biləcək, maarifləndirici tablo və materiallar əsasında oradakı müxtəlif heyvanlar barədə ətraflı məlumat əldə edəcəklər.

Zoopark cəmiyyətin bütün hədəf qrupları üçün heyvanlar və təbii ekosistem, xüsusən Azərbaycanın nadir təbiəti haqda məlumat əldə edəcəkləri tədris, tədqiqat və konservasiya mərkəzinə çevriləcək. Zooparkın fəaliyyətində uşaqların və gənclərin təbiət və onun mühafizəsi haqqında biliklərinin artırılmasına yönələn proqramların həyata keçirilməsinə xüsusi önəm veriləcək.

Zooparkın daxilində azyaşlı uşaqlar üçün ev heyvanlarından ibarət sevimli guşə (pet farm) və kəpənəklər evi də fəaliyyət göstərəcək. Yaralı və xəstə heyvanlar üçün xüsusi karantin zonası və reabilitasiya mərkəzinin də tikilməsi nəzərdə tutulur.

Eyni zamanda, Zooloji Parkın fəaliyyətinin səmərəliliyinin artırılması və ictimaiyyətlə əlaqələrin təkmilləşdirilməsi məqsədilə yeni internet səhifəsi yaradılacaq.

Səksən ildən çox Bakı sakinlərinin və şəhərin qonaqlarının xidmətində olan Bakı Zooloji Parkı hər kəsi yenidənqurma işlərindən sonra zooparkın fəaliyyətini sosial şəbəkələr, veb-səhifəsi və mətbuatda izləməklə dəstək olmağa, onun insan, təbiət və heyvanların bir araya gələcəyi bir məkana çevrilməsinin şahidi olmağa dəvət edir.

## Fondun Müşahidə Şurasının yeni tərkibdə ilk iclası keçirilib

Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının yeni tərkibdə ilk iclası keçirilib. SİA-nın verdiyi məlumata görə, iclasda Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Fondun icraçı direktoru Vüqar Səfərli və Müşahidə Şurasının yeni təyin olunmuş üzvləri iştirak ediblər.



Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, Administrasiyanın İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 13 iyun 2017-ci il tarixli sərəncamı ilə yenidən Fondun icraçı direktoru təyin edilmiş Vüqar Səfərlini təbrik edərək ona fəaliyyətində uğurlar arzulayıb. Ə.Həsənov dövlətimizin başçısının 05 iyun 2017-ci il tarixli sərəncamı ilə təyin edilmiş Fondun Müşahidə Şurasının üzvlərini də təbrik edərək onların Fondun səmərəli fəaliyyətinə layiqli töhfələr verəcəklərinə əminliyini ifadə edib. Fondun icraçı direktorunun və Müşahidə Şurasının yeni üzvlərinin cəmiyyətdə tanındıqlarını və medianın inkişafında mühüm xidmətlərinin olduğunu vurğulayaraq, onların ölkə başçısının yüksək etimadını doğruldacaqlarına inandığını bildirib. Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi dövlətin mediaya daim yüksək diqqət və qayğı göstərdiyini, bunun əyani nümunəsi olaraq 8 il əvvəl yaradılmış Fondun fəaliyyətini və həyata keçirdiyi layihələri yüksək qiymətləndirib. Ə.Həsənov Fondun fəaliyyətinin ictimaiyyət üçün daim açıq olduğunu, medianın inkişafına xidmət edən bütün qərarların Müşahidə Şurasının iclaslarında şəffaf və kollegial şəkildə qəbul olunduğunu bildirərək ötən illərdə formalaşmış müsbət idarəçilik ənənələrinin bundan sonra da davam etdiriləcəyinə əminliyini ifadə edib.

Əli Həsənov Fondun dövlət büdcəsindən ayrılmış vəsait hesabına ölkədə fikir, söz və məlumat azadlıqlarının inkişafına, mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılmasına xidmət edən çoxsaylı layihələr həyata keçirdiyini diqqətə çatdırıb. Kütləvi informasiya vasitələri əməkdaşlarının mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yaşayış binalarının inşa edilməsini dünyada analoqu olmayan konstruktiv təcrübə kimi qiymətləndirən Ə.Həsənov 22 iyul - Milli Mətbuat Günü münasibətilə daha 255 mənzilin ədalətli və şəffaf seçim əsasında jurnalistlərin istifadəsinə veriləcəyini diqqətə çatdırıb. Azərbaycan Respublikası Prezidentinin köməkçisi onu da vurğulayıb ki, ölkə rəhbərliyi bundan sonra da medianın inkişafına və problemlərinin həllinə, eləcə də Fondun bu sahədə həyata keçirdiyi layihələrin uğurla reallaşdırılmasına dəstəyini əsirgəməyəcək. Sonra Fondun Nizamnaməsinə müvafiq olaraq iclasda Müşahidə Şurasının sədri və sədr müavininin seçilməsi ilə bağlı müzakirələr aparılıb. Müşahidə Şurası üzvlərinin yekdil səsverməsi ilə "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov Şuranın sədri, "Trend" İnformasiya Agentliyinin baş direktoru İlqar Hüseynov sədr müavini seçilib. Fondun icraçı direktoru Vüqar Səfərli çıxışında göstərilən yüksək etimada görə öz adından və Müşahidə Şurasının yeni üzvləri adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin təşəkkürünü bildirib. İcraçı direktor göstərilən etimadı doğrultmaq üçün bundan sonra da səylə çalışacaqlarını qeyd edib. V.Səfərli medianın problemlərinin həllinə həssas və qayğıkeş münasibətinə görə eyni zamanda Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənova minnətdarlığını bildirib. Müşahidə Şurasının sədri Həsən Həsənov, şura üzvlərindən İntiqam Hümbətov və Bəhruz Quliyev çıxış edərək göstərilən yüksək etimada görə dövlət başçısına təşəkkürlərini bildirib, Fondun və Müşahidə Şurasının səmərəli fəaliyyəti üçün səylə çalışacaqlarını vurğulayıblar. İclasda Fondun gələcək fəaliyyət istiqamətləri ətrafında da müzakirələr aparılıb.

## Azərbaycan Sərhəd Mühafizəsinin 98-ci ildönümünə həsr olunmuş tədbir keçirilib

***Dövlət Sərhəd Xidməti sərhədlərimizin etibarlı mühafizəsini təmin etməklə yanaşı, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi istiqamətində mühüm tədbirlər həyata keçirir. Bu tədbirlər sırasında xüsusi yer tutan və artıq ənənəyə çevrilmiş "Sərhəd" Hərbi-İdman Oyunları Dövlət Sərhəd Xidməti rəisinin, təhsil nazirinin, gənclər və idman nazirinin birgə qərarı əsasında keçirilir və gənc nəslin Ulu Öndər Heydər Əliyevin dövlətçilik ideyalarına sədaqət ruhunda tərbiyə olunmasında, Vətənə, onun sərhədlərinə məhəbbət hissinin aşılanmasında, gənclərdə sərhədçi peşəsinə marağın artırılmasında böyük rol oynayır.***

Azərbaycan Sərhəd Mühafizəsinin 98-ci ildönümünə həsr olunmuş, üç mərhələdə keçirilən hərbi idman oyunlarında bu il 27 sərhədyanı rayonun 141 məktəbinin 705 şagirdi iştirak etmişdir. İlk iki mərhələnin yekunlarına görə 8 komanda - Naxçıvan MR Naxçıvan şəhər 2 №-li tam orta məktəbinin "Şimşək", Beyləqan rayonu Araz qəsəbəsi 1 №-li tam orta məktəbinin "Araz", Cəlilabad rayonu Ləkin kənd tam orta məktəbinin "Ləkin", Astara rayonu Şiyəkəran kənd 2 №-li tam orta məktəbinin "Şimşək", Xaçmaz rayonu Xudat şəhəri 3 №-li tam orta məktəbinin "Xudat", Qəbələ rayonu Abrıx kənd tam orta məktəbinin "Abrıx", Zaqatala rayonu Danaçı kənd tam orta məktəbinin "Alazan", Ağstafa rayonu Sadıxlı tam orta məktəbinin "Zirvə" komandaları finala vəsiqə qazanıblar.

Oyunların final mərhələsi iyun ayının 19-dan 24-dək Dövlət Sərhəd Xidmətinin Lənkəran sərhəd dəstəsinin Astara sərhəd komendantlığında keçirilmişdir. Oyun iştirakçıları üçün yaradılmış şərait məktəblilərə öz bacarıqlarını tam və sərbəst şəkildə nümayiş etdirməyə imkan veribdir.



Final mərhələsində komandalar "Sıra hazırlığı", "Sərhəd naryadı tərəfindən nəqliyyat vasitələrinə baxışın təşkili", "Avtomatın sökülməsi və yığılması", "Sərhəd pozucusunun yaxalanması və təxliyəsi", "Tüfəngdən hədəfə atəş açmaq", "Maskalanma", "Yaralanmış sərhəd naryadı üzvünə ilkin tibbi yardımın göstərilməsi və təxliyəsi" və "Ləpirçilik" mərhələlərində öz bacarıqlarını nümayiş etdirib.

Hərbi-İdman Oyunlarının keçirildiyi günlərdə məktəblilər hərbi hissədə yaradılmış şəraitlə tanış olmuş, bir sıra maraqlı ekskursiyalara aparılmış, çoxsaylı mədəni-kütləvi tədbirlərə, bilik və idman yarışlarına qatılıblar.

Final mərhələsinin yekunlarına görə Naxçıvan şəhər 2 №-li tam orta məktəbinin "Şimşək" komandası birinci, Cəlilabad rayonu Ləkin kənd tam orta məktəbinin "Ləkin" komandası ikinci, Beyləqan rayonu Araz qəsəbəsi 1 №-li tam orta məktəbinin "Araz" komandası isə üçüncü yeri tutub. İyun ayının 24-də Dövlət Sərhəd Xidmətinin Lənkəran sərhəd dəstəsində "Sərhəd" Hərbi-İdman Oyunlarının yekunlarına həsr olunmuş təntənəli tədbir keçirilib. Tədbirdə Dövlət Sərhəd Xidmətinin, Gənclər və İdman Nazirliyinin və Təhsil Nazirliyinin rəsmiləri qalib komandaları təbrik edərək "Sərhəd" Hərbi-İdman Oyunlarının gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində mühüm rol oynadığı vurğulayıblar.

Tədbirin sonunda qaliblər kubok, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

**R.KAMALQIZI**

# Hərənin öz arşını mənzil bölgüsünə tətbiq olunsunmu?

***Qarşıda Azərbaycan mediası üçün ciddi bir sosial akt gözləntisi var - Milli mətbuat günü 256 həmkarımız mənzilsizliyə yox deyəcək və ya ağır mənzil şəraitini yaxşılaşdıracaq. İlk dəfə bu aktın həyata keçirildiyi 2013- cü ildə olduğu kimi yenə də mənzillərin bölgüsünə media ictimaiyyəti bilavasitə cəlb edilib. Redaksiyalar özləri müzakirə apararaq mənzilə daha çox ehtiyacı, haqqı, media və dövlət qarşısında xidmətləri olan əməkdaşlarını müəyyən edir, adlar açıqlayır. Jurnalist ictimaiyyətinin yaxşı tanıdığı şəxslərdən ibarət komissiya təşkil edilib, komissiya üzvləri ölkənin media adını daşıya biləcək bütün KİV-lərində redaksiyadaxili müzakirələrdə iştirak ediblər.***

Bu zaman umu-küsülərin olması təbiidir, zira insanların özlərini dəyərləndirmə meyarları fərqlidir. Kimsə daha çox istedadlı olmasını, kimsə daha çox övlad dünyaya gətirməsini, kimsə yazılarına layk çox gəlməsini, kimsə uğurlu başlıqlar düşünməsini, kimsə çox rahat şəkildə bir media quruluşunda bir, digərində başqa imzalarla fərqli mövqelərdən çıxış etməsini, kimsə də sadəcə səhərlər yuxudan erkən durmasını... əsas kriteriya hesab edə bilər.

Bəs bu qədər subyektiv yanaşmalar varkən mənzillər necə bölünməlidir? Subyektiv yanaşmalara yer qalmaması üçün komissiya tərəfindən vahid kriteriyalar müəyyən edildi. Fərdlərin iddiasını əsaslandırması üçün hər hansı dövlət mükafatı (unutmayaq ki, bu, ünvanlı sosial yardım deyil, yalnız layiq bilinən jurnalistlər üçün verilən təltifdir) üçün tələb olunan şərtlər burda da təkrarlanır - təltif olunmaq istədiyin sahədə uzunmüddətli staj və bunu təsdiqləyən sənəd-əmək kitabçası, söhbət mənzillə təminatdan getdiyindən mülki vəziyyətini təsvir edən sənədlər. Bu tələblər hər hansı ciddi təltif üçün ilkin şərtlərdir, siz hər hansı kollektivdə çalışmadan kollektiv sizi dövlət təltifinə təqdim edə bilərmi? Təbii ki, yox. İşlədiyin KİV yoxdursa, necə jurnalist peşəsi ilə məşğul olduğunu iddia edə bilərsən?

Əlbəttə ki, zamanında KİV-də aktiv olmuş, hazırda peşədən uzaqlaşmış şəxslər var. Belələri içərisində həqiqətən də, mənzil şəraitini yaxşılaşdırmağa ehtiyac duyanlar və bunun dövlət tərəfindən edilməsinə layiq olanlar var. Məhz bu kateqoriya üçün də veteran jurnalistlərə fərdi müraciət etmək hüququ tanındı. Ötən dəfə hətta tanınmış mərhum jurnalistlərin Alı Mustafayevin və Mirzə Əskərovun ailələri də diqqətdən kənarda qalmadı. Bu dəfə də eyni hallar gözlənilləndir. Əsas odur ki, bu proses lap əvvəldən məhz jurnalistlərin özləri tərəfindən idarə olunur.



Təəssüf ki, bizə adi, hamının anlayıb başa düşəcəyi kimi görünən hüquqi şərtlər, ümumi kriteriyalar səhər hamıdan erkən durmasını kritetiya zənn edənlər üçün anlaşılmaz, kiminsə sıxışdırılması, qərəz kimi görünür.

Budur, Cinayət Məcəlləsinin konkret maddələri ilə (reketlik dələduzluq, xuliqanlıq, şantaj) ittiham edilərək məsuliyyətə cəlb olunmuş Habil Vəliyev ("Gündəlik Bakı" qəzeti) məktəbindən məzun olmuş, daha sonra Habil Vəliyevin qohumu, hazırda eyni maddələrlə mühakimə olunan Surxay Əliyevin ( "Bizim dövr" qəzeti) həyat məktəbində ustalıq dərsi almış Ədil Hüseynli özünü bəri başdan sıxışdırılmışlar cərgəsində sayır.

"Böyük məktəblər"in yetirməsi, vaxtilə "Gündəlik Bakı" və Bizim dövr"ün redaktor və şef redaktor olmuş, eyni zamanda "Bizim xəbər", "Bizim əsr" qəzetlərinin və eyni adlı saytların sahibi olan, üstəlik serhed.info saytına da əli çatan baş redaktor jurnalistlər üçün tikilmiş ikinci binanın kimlərə verilməli olduğu haqda keçdiyi məktəbin ruhu sezilən ittiham və suallar dolu yazı qaralayıb. Məzunu olduğu məktəbin hamıya dərs verməli gücünə inanan Ə. Hüseynli yazının elə əvvəlindəcə ələşənlə küləşəni bir- birinə qatır. Binada dəfələrlə deyildiyi kimi 255 mənzil var, daha Habil Vəliyevin yetirməsini iddia etdiyi kimi 265 yox.

Daha sonra o, hansısa biznesmenlərin dəstəyilə onlarla sayt açıldığını yazır. Bu biznesmenlərin və ya məmurların kimliyini bilmirik. Amma məhkəmənin gedişindən bəllidir ki, ustadları Habil Vəliyev və Surxay Əliyevə hansısa adlar əyan imiş. Odur ki, həmin adları "öz saytına pul verirsən, bizə də pul ver" deyə şantaja keçiblərmiş. Gümanları onları yanıltmış, informasiyaları yanlış çıxmışdı, nəticəsi sizə bəllidir. Görünür, ustadların davamçıları o yanlışları hələ də naxış bilməkdədirlər. Əks təqdirdə hər üç saytı gah bu, gah da digər məmur və biznesmeni hədəf alan yazıları bolluğu bəzəməzdi.

Yazıda iddia edilir ki, son iki ildə "reket jurnalistika ölkəni bürüdü". Təvazökarlığın bu səviyyəsi də yox artıq. Bəs, kimlərsə əvvəl "Gündəlik Bakı", sonra "Bizim dövr"dən gediş səbəbləri haqda danışanda onların "qara siyahı"ya düşməsini göstərirmirdimi? Ustadları belə tez unutmaq olmaz axı. Şəyirdin ustaddan ayrılıb özünə yeni mətbu obyekt açmasından da az vaxt keçmir. Hələ 2009-cu ildə "Bizim xəbər"ə reketlik üslubuna görə xəbərdarlıq edilməmişdimi?

Kimə bəlli deyil ki, Mətbuat Şuralarının yaranması ideyası cəmiyyəti qərəzli mediadan qorumaq zərurətindən doğub. Və ideya olaraq Azərbaycanda 2000-ci illərin əvvəllərindən etibarən müzakirə edilib.

Müəllif qeyd edir ki, "reket" adını jurnalist adı ilə yanaşı çəkmək doğru deyil". Haqlı saya biləcəyimiz məqamdır. Jurnalist və reket, jurnalist və Habil Vəliyev, jurnalist və Surxay Əliyev, jurnalistika və Habil Vəliyev məktəbinin yetirmələri bir araya sığan ifadələr deyil. Komissiyanın qoyduğu tələblər məhz belələrinin jurnalistlər üçün imtiyazlardan, təltiflərdən istifadə edə bilməsinin qarşısını almaq üçündür. Gözlənildiyi kimi, məhz belələrindən ibarət bütöv bir xor internet və sosial medianın imkanlarından dövlətin təşəbbüsünü gözdən salmaq naminə istifadə etməkdədirlər.

Mətbuat Şurasının təsis qurultayında Azərbaycan jurnalistlərinin qəbul etdikləri peşə davranış kodeksi var, Şuranın mövcud olduğu 14 il ərzində bu kodeksə əməl edən, adı "qara siyahı"ların bəzəyi olmayan KİV-lər və şəxslər dövlət tərəfindən təltif edilir, mənzillə təmin olunur, birbaşa yardımlar alır, yazı müsabiqələrində birgə iştirak edirlər və s. Bundan da hamı məmnun kimi görünürdü. "Filan generalla yaxınam", "filan general qohumum mənə sayt açıb", "filan general məni öz yanına aparacaq" deyənlər də. Çünki gəlirləri çıxırdı, kimi özünə yeni sayt-obyektlər açır, Şağanda, Mərdəkanda imarətlər saldırırdı, kimi gündə bir avtomobil dəyişirdi. "General" deyə öydükləri şəxslər o jurnalistlərin bir qismini doğrudan da yanlarına çəkib apardılar- indi hüququn aliliyi qarşısında birgə cavab verirlər. Amma 2014-cü ildən üzü bəri anons etmələrinə rəğmən hələ də "general" yanına gedə bilməyənlər də var.

Bir xatırlatma da edək, yazıda adıçəkilən KİVDF 2009-cu ildə təsis edilib, Habil Vəliyevlə yetirməsinin öz yollarını ayırdığı 2010-cu ildən bir il əvvəl. Onun sədri isə 80-cillərdən üzü bəri media yayımında çalışan, 90-cı illərdən bəri də qəzet təsisçisi olan şəxsdir. 80-90-cı illərdə nəinki jurnalistikada, heç orta məktəbdə də olmayanlar o illərin təhlilinə girişəndə bir balaca məlumatlanmaları yaxşı olardı.

...Yuxarıda qeyd etdik ki, ilk mənzil bölgüsündə olduğu kimi bu dəfə də əsas funksiyanı yerinə yetirənlər - kimin mənzilə haqqı və ehtiyacının olmasını müəyyən edən komissiya jurnalist ictimaiyyətindən seçilib. İlkin müzakirələrsə redaksiyalar daxilində aparılır. Amma bu, dövlətin heç bir prosesə qarışmayacağı anlamına gəlmir. Yaranmış mübahisələri yola qoymaq, seçilmiş namizədlərin sırasında ən layiqlilərini müəyyən etmək dövlətin öhdəsində qalır. Müvafiq dövlət qurumu bu işi ölkənin ali rəhbərliyinin bilavasitə nəzarəti altında ilə həyata keçirir.

Məhz belə şəffaf nəzarət mexanizmi imkan verəcək ki, Habil Vəliyevlər və yetirmələri mediaya dəxli olmadıqlarını bir daha anlasınlar...

***İsmayıl QULİYEV***

AtaHolding

MD 01 / Forma 02 / nəşr 01

səh. 1 / 2

"AtaHolding" MMC
BALANS

| | | 31.12.2016 | 31.12.2015 |
|---|---|---|---|
| | AKTİVLƏR | | |
| | Cari aktivlər | | |
| 1 | Pul vəsaitləri | 202 672,54 | 904 007,40 |
| 2 | Debitor borclar | 9 736 805 | 14 314 739,28 |
| 3 | Qabaqcadan ödənişlər | 1 440,55 | 1 054,24 |
| 4 | Mal-material ehtiyatı | 0,00 | 0,00 |
| 5 | Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar | 0,00 | 0,00 |
| • | Cari aktivlərin cəmi | 9 940 917,73 | 15 219 800,92 |
| | | | |
| 6 | Müştərilərə xalis kreditlər | 0,00 | 0,00 |
| 7 | Maliyyə qoyuluşları | 114 764 499,41 | 117 734 895,81 |
| 8 | Kapital qoyuluşları | 4 915,41 | 4 915,41 |
| 9 | Əsas vəsaitlərin qalıq dəyəri | 2 003 898,19 | 2 170 722,67 |
| 10 | Azqiymətli tezköhnələn əşyaların qalıq dəyəri | 0,00 | 0,00 |
| 11 | Qeyri-maddi aktivlərin qalıq dəyəri | 143 902,98 | 160 702,98 |
| 12 | Aktivlər üzrə ehtiyatlar (kreditlər istisna olmaqla) | 0,00 | 0,00 |
| 13 | Digər aktivlər | 20 185,89 | 14 806,70 |
| | Aktivlərin cəmi | 126 878 319,61 | 135 305 844,49 |
| | | | |
| | ÖHDƏLİKLƏR VƏ KAPİTAL | | |
| | Öhdəliklər | | |
| 1 | Kreditorlarla hesablaşmalar | 706 064 | 335 818,13 |
| 2 | Depozitlər | 0,00 | 0,00 |
| 3 | Alınmış avanslar | 2,31 | 0,00 |
| 4 | Qısamüddətli bank krediti | 0,00 | 0,00 |
| 5 | Qısamüddətli borclar | 0,00 | 0,00 |
| 6 | Büdcə ilə hesablaşmalar | 8 477,76 | 0,00 |
| | Cari öhdəliklərin cəmi | 714 544,27 | 335 818,13 |
| 7 | Uzunmüddətli borclar | 177 070,00 | 7 055 940,00 |
| 8 | Uzunmüddətli bank krediti | 0,00 | 0,00 |
| 9 | Digər öhdəliklər | 0,00 | 0,00 |
| | Öhdəliklərin cəmi | 891 614,27 | 7 391 758,13 |
| | Kapital | | |
| 10 | Nizamnamə kapitalı | 125 345 000,00 | 125 345 000,00 |
| 11 | Ehtiyatlar və digər kapital | 0,00 | 0,00 |
| 12 | Keçmiş illərin bölüşdürülməmiş mənfəəti və ya zərəri | 2 569 086,36 | -122 336,13 |
| 13 | Cari ilin bölüşdürülməmiş mənfəəti və ya zərəri | -1 927 381,02 | 2 691 422,49 |
| | Kapitalın cəmi | 125 986 705,34 | 127 914 086,36 |
| | Öhdəliklər və Kapitalın cəmi | 126 878 319,61 | 135 305 844,49 |

Rəhbər :

(Adı, soyadı)

AtaHolding

MD 01 / Forma 01 / nəşr 01

səh. 1 / 1

"AtaHolding" MMC
Mənfəət və zərər hesabatı

| | | 31.12.2016 | 31.12.2015 |
|---|---|---|---|
| | Gəlirlər | | |
| 1 | Əsas fəaliyyət gəlirləri | 0,00 | 0,00 |
| 2 | Satış, iş və xidmətin maya dəyəri | 0,00 | 0,00 |
| 3 | Satışdan və xidmətdən xalis gəlir (1-2) | 0,00 | 0,00 |
| 4 | Xərclər | 2 361 891,26 | 2 681 342,51 |
| 4.1 | Ümumi xərclər | 367 743,76 | 426 599,79 |
| 4.2 | İnzibati xərclər | 1 347 165,51 | 1 492 552,14 |
| 4.3 | Vergilər | 299 970,80 | 354 366,58 |
| 4.4 | Ofis xərcləri | 152 731,84 | 171 166,57 |
| 4.5 | Digər xərclər | 10 679,35 | 32 861,97 |
| 4.6 | Köhnəlmə və Amortizasiya xərcləri | 183 600,00 | 203 795,46 |
| 5 | Xalis əməliyyat gəliri (gəlirlər-xərclər) (3-4) | -2 361 891,26 | -2 681 342,51 |
| 6 | Qeyri əməliyyat gəliri | 868 793,29 | 1 116 199,36 |
| 7 | Qeyri-əməliyyat xərci | 409 901,31 | 329 501,14 |
| 8 | Ehtimal olunan zərələr üzrə yaradılmış ehtiyatlar | 0,00 | 0,00 |
| 9 | Vergidən əvvəl balans mənfəəti (zərəri) (5+6-7-8) | -1 902 999,28 | -1 894 644,29 |
| 10 | Cari ilin mənfəətindən vergi | 0,00 | 0,00 |
| 11 | Vergidən sonra xalis mənfəət (zərər) | -1 902 999,28 | -1 894 644,29 |
| 12 | Vergiyə cəlb olunmayan gəlir | 0,00 | 4 635 439,96 |
| 13 | Mənfəət hesabına çəkilən xərclər | 24 381,74 | 49 373,18 |
| 14 | Bölüşdürüləsi mənfəət (zərər) (11+12-13) | -1 927 381,02 | 2 691 422,49 |
| 15 | Elan olunmuş divident | 0,00 | 0,00 |
| 16 | Cari ilin bölüştürülməmiş mənfəəti (zərəri) (14-15) | -1 927 381,02 | 2 691 422,49 |

Rəhbər :

(Adı, soyadı)

AtaHolding

# Azərbaycanda İnsan Hüquqları Günü ənənəyə çevrilib

***Müstəqil Azərbaycanda bu gün demokratikləşmə, insan hüquq və azadlıqlarının təmini sahəsində yüksək nailiyyətlər qazanılmış, vətəndaş cəmiyyəti quruculuğu, məhkəmə-hüquq və ədliyyə islahatları həyata keçirilmişdir. İ.Mustafayev yazır: "İnsan hüquqlarına hörmət cəmiyyətin demokratikliyini sübut edən əsas atributlardan biri olmaqla, həmin hüquqların qeyd-şərtsiz təmin olunması beynəlxalq hüququn təminatlarından biridir. Hazırda demokratik mahiyyətli dövlət qurduğunu elan edən hər bir dövlət dünya birliyində özünə layiqli yer tutmaq istəyirsə, o, ilk növbədə, öz ölkəsində insan və vətəndaş hüquq və azadlıqlarının hərtərəfli qorunmasını təmin etməli, bu hüquq və azadlıqların sərbəst şəkildə və məhdudlaşdırılmadan həyata keçirilməsi üçün şərait yaratmalıdır. İnsan hüquqlarının əsas konsepsiyası ondan ibarətdir ki, bütün insanlar insan olmalarına görə, eyni hüquqlara malik olmalıdırlar və bu hüquqlar hər hansı bir izaha ehtiyac olmadan, hər kəsə bərabər şəkildə aid edilməlidir. Belə ki, hər bir insan onun malik olduğu irqdən, cinsdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşəyindən, mülkiyyətdən, doğum və başqa hallardan asılı olmayaraq, təmin olunmuş insan hüquqlarına malikdir".***

Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş insan və vətəndaş hüquqlarının daha effektiv təmin edilməsi məqsədilə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən bu sahədə mühüm fərman və sərəncamlar imzalanmışdır. Azərbaycan Respublikası Prezidentinin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərmanından irəli gələn məqsəd və vəzifələri nəzərə alaraq, insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramını, xüsusilə qeyd etmək lazımdır. Proqramda:

- Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması,
- bu sahədə elmi-tədqiqat institutunun yaradılması,
- normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi,
- hüquqi mexanizmlərin təkmilləşdirilməsi,
- insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi,
- bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil proqramları üzrə mütəxəssislərin hazırlanması,
- insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər əks olunub. Məhz bundan sonra ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə olunması istiqamətində görülən fundamental tədbirlər davam etdirildi və bu sahədə çox ciddi nailiyyətlər əldə edildi. Ölkəmizdə həyata keçirilən çoxşaxəli humanizm siyasətinin real və qanunauyğun nəticəsi kimi, Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi yönündə yeni keyfiyyət dəyişiklikləri baş verdi.

Prezident İlham Əliyevin yürütdüyü siyasəti əsasında insan hüquq və azadlıqlarının təmini məsələsi dayanır. Bu siyasətin məntiqi davamı olaraq, dövlət başçısının 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir: "Ötən illər ərzində Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirmiş, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş insan hüquqlarının müdafiəsi sahəsində Dövlət Proqramı çərçivəsində qanunvericilik və institusional islahatlar həyata keçirilmişdir. Demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sistemi, konstitusiya nəzarəti, İnsan Hüquqları üzrə Müvəkkil kimi yeni təsisatlar yaradılmış, hüquq- mühafizə fəaliyyəti təkmilləşdirilmiş, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyəti genişlənmiş, insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmləri formalaşdırılmışdır.

Hazırda Azərbaycanın yaşadığı yeni inkişaf mərhələsi insan hüquqlarının müdafiəsi sahəsində aparılan ardıcıl islahatların davam etdirilməsini şərtləndirir. Qarşıdan gələn illər üçün Azərbaycan Respublikasının normativ-hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, elmi-analitik işlərin stimullaşdırılması, hüquqi-maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələr müəyyən edilir."

Strateji əhəmiyyətli bu sənəd insan hüquqlarının təmin edilməsi prosesini keyfiyyətcə yeni mərhələyə keçirmişdir. Cənab İlham Əliyevin 17 iyun 2007-ci il tarixli Sərəncamı ilə 18 iyun tarixinin "İnsan Hüquqları Günü" elan olunması da, məhz bu əlamətdar hadisədən qaynaqlanır.

Prezident İlham Əliyev ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq məqsədilə 2011-ci il dekabrın 27-də imzaladığı Sərəncamla "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nı təsdiq etmişdir. Milli Fəaliyyət Proqramının "İnsan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə tədbirləri"ndən bəhs edən dördüncü fəslində insan hüquq və azadlıqlarına mühüm təhlükə yaradan təcavüz, terrorçuluq, korrupsiya, insan alveri kimi cinayətlərin qarşısının alınması, xüsusi qeyd olunur.

Azərbaycanda insan hüquqlarının və azadlıqlarının qorunması istiqamətində bir çox qanunlar, o cümlədən "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya qanunu, Seçki Məcəlləsi, "Sərbəst toplaşmaq azadlığı haqqında", "Siyasi partiyalar haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və digər qanunlar qəbul edilmişdir.

Bu gün Azərbaycan ümumbəşəri dəyərlərə əsaslanaraq, mütərəqqi yolla irəliləməklə, insan hüquq və azadlıqlarının təminatı və demokratikləşmə sahəsində yeni-yeni uğurlara imza atır. Respublikamız milli maraqları ilə bağlı məsələlərdə heç bir dövlətə, hətta ən yaxın müttəfiqlərinə də güzəştə getmək niyyətində olmadığını dəfələrlə sübuta yetirib. Bu prinsipial və qətiyyətli yanaşma ölkənin daxili işlərinə kobud şəkildə nüfuz etməyə, bu yolla iqtisadi-siyasi maraqlarını gerçəkləşdirməyə çalışan bəzi dövlətlərə, beynəlxalq qurumlara və transmilli korporasiyalara münasibətdə özünü daha kəskin şəkildə göstərib. Ölkə rəhbərliyi bu gün də iqtisadi və siyasi islahatları hansısa dövlətin və ya beynəlxalq qurumun diktəsi altında deyil, elmi prinsiplərlə reallaşdırdığı mükəmməl strategiya əsasında aparır. Ulu Öndər Heydər Əliyev tərəfindən insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə olunması istiqamətində həyata keçirilən çoxşaxəli humanizm siyasəti Prezident İlham Əliyevin timsalında müasir dövrün qanunauyğunluqlarına, reallıqlarına və tələblərinə müvafiq surətdə davam etdirilməkdədir. Məhz bu cür ali və humanist mövqeyin qanunauyğun nəticəsi kimi, 2006-cı ildə qəbul edilmiş Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına və dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir. Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamına əsasən, 18 iyun Azərbaycanda "İnsan Hüquqları Günü" elan edilib.

Prezident İlham Əliyev Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində digər milli fəaliyyət proqramını 27 dekabr 2011-ci il tarixdə təsdiq etmişdir. Milli fəaliyyət planının dördüncü fəslində insan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə tədbirlərinin görülməsi nəzərdə tutulmuş, insan hüquqları sahəsində beynəlxalq sənədlərin, xüsusilə İnsan Hüquqlarına dair Avropa Konvensiyasının dövlət qulluqçuları, məhkəmə, prokurorluq, daxili işlər orqanlarının əməkdaşları və vəkillər, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının və regional mərkəzlərinin işçiləri və bələdiyyə üzvləri tərəfindən öyrənilməsinin təmin edilməsi əsas prioritet məsələlərdən biri kimi ön plana çəkilmişdir.

Azərbaycan Respublikasının ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiyasının 12 və 71-ci maddələrinə, Cinayət-Prosessual Məcəlləsinin 12-ci maddəsinə əsasən, insan hüquq və azadlıqlarının təmin edilməsi Azərbaycan dövlətinin ali məqsədi olmaqla, həmin hüquqların gözlənilməsi və qorunması qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Həm məhkəmə hakimiyyətinə daxil olan, həm də cinayət prosesini həyata keçirən bir orqan kimi prokurorluq cinayət prosesində iştirak edən bütün şəxslərin konstitusiya ilə təsbit edilmiş hüquqlarının təmin edilməsində mühüm rol oynayır. Bu müddəaya uyğun olaraq, Azərbaycanda insan hüquqlarının inkişafına və təkmilləşdirilməsinə daima böyük diqqət yetirilir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## *Xəbərdarlıq: Dar cins şalvar ayaqlarda sinir sıxılmasına səbəb olur*



Bu gün cins geyinməyən yoxdur bəlkə də. Xüsusən də dar cins şalvarlar dəbdən düşmək bilmir. Amma dəb də gərək yaraşa və sağlamlığa faydalı ola. Belə ki, ABŞ mütəxəssisləri dar cins şalvar geyinən qadınlara xəbərdarlıq edib. Onlar bu geyimin ayaqlarda sinir sıxılmasına səbəb olduğunu vurğulayıblar.

Alimlər hesab edir ki, dar cins şalvarlar sinirlər üzərində təzyiq yaradır. Bu da ayaqlarda ağrı və hissizliyə səbəb olur. Eyni zamanda həftənin 3-4 günü dar cins geyinən qadınlarda varikoz və sistit olması riski daha çoxdur.

## *Özünü xoşbəxt hiss edən insanlar daha çox yemək yeyirlər...*



Stresdən kökəldiyini deyənlərin yalanı ortaya çıxdı. Hollandiyalı psixoloqlar apardıqları araşdırmalar zamanı maraqlı nəticələr əldə ediblər. Belə ki, 87 tələbənin üzərində aparılan təcrübə özünü xoşbəxt hiss edən insanların daha çox yemək yediyini ortaya çıxarıb. Məlumdur ki, artıq çəkili insanlar tez-tez stressdən kökəldiklərini dilə gətirirlər. Ancaq araşdırma bunun doğru olmadığını göstərib. Belə ki, araşdırmanı aparan psixoloqlar xoşbəxt insanın daha çox yediyini və kökəlmək riskinin də daha çox olduğunu bildirib. Psixoloqların sözlərinə görə, özünü yaxşı və ya pis hiss etmək hər 100 nəfərdən 75-nin iştahına təsir edir.

## *ŞOK: Stresli peşələr sonsuzluq yaradır*



Stresli peşələrdə çalışan kişilərdə sperma səviyyəsi aşağı olur. Çörəkçilər, dönərçilər, aşpazlar, hamam və saunada çalışanlar, qızıl-gümüş istehsalı ilə məşğul olanlar, uzun yol sürücüləri, radioterapiya kimi şüa əhatəsində çalışan tibb işçiləri, həşəratların dərmanlanması və kimyəvi maddələr istehsal edilən fabrik-zavodlarda çalışan kişilər sonsuzluq təhlükəsi daşıyırlar.

Son zamanlarda kişilərdə normal sperma sayı 20 milyondan 15 milyona enib. Bunun da ən vacib səbəbi stress və ətraf mühit faktorlarıdır. Kişilərdə sperma sayında baş verən bu azalma stresli iş şəraiti və daha çox istiliyə məruz qalmaqla əlaqələndirilir. Sonsuzluq probleminin çoxu kişilərdə sperma azlığı ilə bağlıdır. Stress və yüksək temperatur şəraitində işləyən kişilərdə sperma hərəkətliliyində azalma və quruluşunda pozulmalar baş verir.

## *"Qalatasaray" Konoplyankanı transfer etmək istəyir*



İstanbulun "Qalatasaray" futbol klubu, "Şalke"nin futbolçusu Yevgeni Konoplyankanı heyətinə cəlb etmək istəyir. Bu barədə "Bein Sports" məlumat yayıb. Xəbərdə deyilir ki, İstanbul təmsilçisi ukraynalı hücumçu və onun klubu ilə danışıqlara başlayıb. Qeyd edək ki, ötən mövsüm "Şalke"nin heyətində 29 oyuna çıxan Konoplyanka 7 qol vurub.

## Formula-1 yarışının Azərbaycan Qran-Prisində 137 ötmə olub



Formula-1 yarışının Azərbaycan Qran-Prisi hadisələrlə zəngin olub, intriqa isə finişə qədər davam edib. "F1News.ru" saytı xəbər verir ki, "Mercedes" komandasının hesablamasına görə, yarışda 137 ötmə olub və onlardan cəmi 25 ötmə DRS-in köməyi ilə baş tutub. Komandanın baş yürüş mühəndisi Enryu Şovlin bununla bağlı deyib: "Yürüş xaotik alındı və nəticəni proqnozlaşdırmaq çətin idi. Qəzalar baş verdi, təhlükəsizlik avtomobili keçdi, qırmızı bayraqlar göründü. Bu və ya digər vəziyyət, yaxud da problemlə əlaqədar bir neçə əsas fiqur mübarizəni dayandırmalı oldu: Fetteli cərimələdilər, Hamiltonda yastığının bərkidilməsi ilə bağlı çətinlik yarandı, Ferstappen həftəsonunda əsasən əla çıxış etdi, lakin güc qurğusunda qüsura görə geri qaldı. Bütün bunlar o biri pilotlara şans verdi. Məsələn, altıncı və ya yeddinci dövrədə Daniel Rikkardoda əyləclə bağlı problem yarandı, o, havaötürücünü təmizləmək üçün pit-stop etməyə məcbur oldu. Yarışın əvvəlində adama elə gəlirdi ki, onunku gətirmir, lakin elə alındı ki, bu, hər kəsin mövqeyini itirdiyi və sonradan bunu geri qaytarmağa çalışdığı yürüşə çevrildi.

Yürüşdə 137 ötmənin olması inanılmazdır. Bu trasda ötmək olar: orada çox düz, təxminən 2 km yolu tam sürətlə gedirsən. Bu imkan Valtteriyə rəqiblərini bir-bir ötmək imkanı yaratdı.

Lakin bəzən DRS-ə görə çətin oldu: əgər siz üç maşından ibarət qrupdasınızsa, ortada gedən maşının sürücüsü də DRS-dən istifadə edə bilər. Bottas üçün rəqiblərini, o cümlədən "Force India" və "Toro Rosso"nu ötmək asan olmadı. Lakin o, bunların öhdəsindən əla gəldi, maşın isə çox gözəl işlədi. Bu cür gözəl yürüşlərin olması idmanda böyük üstünlükdür. Trasın konfiqurasiyası nəticəsində də yürüş maraqlı olub. Mənə elə gəlir ki, Azərbaycan Qran-Prisi klassik mərhələlərdən biri olacaq. Bu, heç vaxt darıxdırıcı olmayan yürüşlərdən birinə çevriləcək".



## Gənclər arasında cüdo üzrə Azərbaycan birinciliyinə start verilib

Dünən "Sərhədçi" İdman Olimpiya Mərkəzində 23 yaşadək gənclər arasında cüdo üzrə Azərbaycan birinciliyinə start verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Cüdo Federasiyasının təşkilatçılığı ilə keçirilən ölkə birinciliyində 46 klubdan 333 cüdoçu (288 oğlan, 45 qız) qüvvəsini sınayır. İki gün davam edəcək yarışın ilk günündə 181 cüdoçu tatami üzərinə çıxır. Dünən qızlarda 48, 52, 57, 63, 70, 78 kiloqram və 78 kiloqramdan yuxarı çəki dərəcələrində, oğlanlarda isə 60 və 66 kiloqram çəkidə iştirakçılar medallar uğrunda mübarizə aparıblar.

## Ronaldu üçüncü yer uğrunda matçda oynamayacaq



Futbol üzrə Portuqaliya yığmasının kapitanı Kriştianu Ronaldu ailə vəziyyəti ilə əlaqədar Konfederasiyalar Kubokunda üçüncü yer uğrunda matçda oynamayacaq. Otuz iki yaşlı forvard özünün Facebook səhifəsində yazıb ki, yaxınlarda surroqat ananın onun üçün dünyaya gətirdiyi uşaqları ilə ilk dəfə görüşmək istəyir. Əkizlər iyunun əvvəlində ABŞ-da doğulublar. Körpələrə Yeva və Metyu adları verilib. K.Ronaldu yazıb: "Mən bütün qəlbim və cismimlə milli komandanın xidmətində olmuşam, halbuki iki övladım yenicə dünyaya gəlib. Təəssüf ki, biz turnirdə əsas məqsədimizə nail ola bilmədik, amma komandamız öz azarkeşlərini sevindirməyə davam edəcək. Portuqaliya Futbol Federasiyasının başçısı və yığmanın məşqçisi məni başa düşdülər. Bunu heç vaxt unutmayacağam. Axır ki, övladlarımı ilk dəfə görə biləcəyəm. Buna görə çox şadam".

K.Ronaldu Konfederasiyalar Kuboku turnirində iki qol vurub və üç dəfə matçın ən yaxşı oyunçusu sayılıb. Portuqaliyalılar iyunun 28-də Kazanda yarımfinal mərhələsində matçdan sonrakı penaltilər seriyasında Çili yığmasına uduzaraq, əsas mükafat uğrunda mübarizədən kənarlaşıblar. Fernandu Santuşun yetirmələri iyulun 2-də turnirdə son matçlarını keçirəcəklər. Onlar Almaniya-Meksika görüşündə uduzan komanda ilə bürünc mükafat uğrunda təsəlliverici finalda qarşılaşacaqlar. Əlavə edək ki, K.Ronaldu surroqat anadan doğulmuş daha bir övladını böyüdür. Oğul Kriştianu Ronaldu 2010-cu il iyunun 17-də anadan olub. Adlı-sanlı futbolçu hazırda 22 yaşlı ispan model Corcina Rodriges ilə görüşür.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**